YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

15 iyul 2026-cı il, çərşənbə

№ 122 (7189)

Qiyməti 60 qəpik




Milli azadlıqdan şirin nemət yoxdur!

# Azərbaycan-Slovakiya siyasi əlaqələri çox yüksək səviyyədədir



Bax səh. 2

# IV Şuşa Qlobal Media Forumu...

Bax səh. 3-4

## Regional liderlikdən “orta güc”ə doğru

Bax səh. 5

## Azərbaycan-ABŞ münasibətlərində yeni səhifə...

Geosiyasi əməkdaşlıq, qlobal proseslərdə birgə fəaliyyət...

Bax səh. 6



Bax səh. 5

## “15 İyul direnişinin dünya demokratiya tarixində bənzəri yoxdur”

## Güclü Azərbaycanın təməlində dayanan ideya!

Bax səh. 8

## İRƏVANIN AZƏRBAYCANLI MAARİFÇİ XANIMLARI

Bax səh. 7




## Avrasiyanın mühüm nəqliyyat qovşağı



Bax səh. 6

# Slovakiya Prezidenti Azərbaycanda səfərdədir

## Prezident İlham Əliyev: Bizim siyasi təmaslarımız müntəzəm xarakter alır, siyasi əlaqələr çox yüksək səviyyədədir



İyulun 14-də Şuşada Slovakiya Respublikasının Prezidenti Peter Pelleqrininin rəsmi qarşılanma mərasimi olub. Prezident İlham Əliyev Slovakiya Prezidenti Peter Pelleqrinini qarşılayıb. Slovakiya Respublikasının və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndirilib. Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Prezident İlham Əliyevin və Slovakiya Prezidenti Peter Pelleqrininin qarşısından keçib. Azərbaycan nümayəndə heyətinin üzvləri Prezident Peter Pelleqriniyə, Slovakiya nümayəndə heyətinin üzvləri isə Prezident İlham Əliyevə təqdim olunub. Dövlət başçıları rəsmi foto çəkdiriblər.

Prezident İlham Əliyevin iyulun 14-də Şuşada Slovakiya Respublikasının Prezidenti Peter Pelleqrini ilə təkbətək görüşü olub.









İyulun 14-də Şuşada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Slovakiya Respublikasının Prezidenti Peter Pelleqrini ilə geniş tərkibdə görüşü olub. Prezident İlham Əliyev çıxış edərək bildirib ki, ötən il Slovakiyaya rəsmi səfərimdən və müzakirələrimizdən xoş xatirələr qalır. “Məmnunam ki, fəal dialoqu davam etdiririk. Eyni zamanda, şadam ki, Sizi Administrasiyanızın və Hökumətinizin mühüm üzvlərindən ibarət çox böyük nümayəndə heyəti müşayiət edir. Biz də böyük heyətimizlə buradayıq. Bu, işin və ikitərəfli gündəliyin miqyasını, həmçinin irəliləyişi gördüyümüz və əlavə irəliləyişi görmək istədiyimiz həmin istiqamətləri nümayiş etdirir. Elə indicə bir çox məsələlərlə bağlı təkbətək fikir mübadiləsi apardıq, indi isə nümayəndə heyətləri ilə davam edirik. Tam əminəm ki, bu səfər tərəfdaşlığımıza əlavə təkan verəcək. Sizi Qarabağda qəbul etmək xüsusilə xoşdur. Sabah Siz Bakıda olacaqsınız. Biz, həmçinin hazırda slovak şirkəti tərəfindən tikilən “ağıllı kənd”ə səfər edəcəyik və bu, güclü əlaqələrimizin digər yaxşı nümunəsidir. Hazırda burada, Qarabağda yenidənqurma işləri hökumətimizin əsas prioritetlərindən biridir. Buna görə slovak mütəxəssislərin iştirakı olduqca vacibdir. Bir sözlə, biz bu gün gündəliyimizdə olan bir çox məsələləri əhatə edəcəyik. Bir daha xoş gəlmisiniz və dəvətimi qəbul etdiyinizə görə minnətdaram”.

Slovakiya Prezidenti Peter Pelleqrini çıxış edərək güclü nümayəndə heyəti ilə yenidən Azərbaycanda olmağı böyük şərəf adlandırıb: “Sizin Bratislavaya səfəriniz mənim də xatirimdədir. Həmin səfər diplomatik münasibətlərimizin tarixində mühüm səfər oldu. Əlbəttə, mən Bakıda deyil, Qarabağda, Şuşada görüşmək təklifinizi çox yüksək dəyərləndirirəm. Biz, həqiqətən, böyük təəssürat altındayıq. Ötən gecədən başlayaraq, cəmi bir neçə saatdır buradayıq və azad ediləndən sonra bir neçə il ərzində görülmüş işlər, həyata keçirilmiş infrastruktur layihələri bizə xoş təəssürat bağışladı. Biz çox fərəhlənirik ki, Slovakiya həmin işlərdə iştirak edir. Həmin mühüm layihələrdə iştirak edən iki xarici şirkətlərdən biri bizik. Ümid edirik ki, slovak ekspertlər gələn illərdə də burada digər yeni layihələrdə iştirak edəcəklər”.

Prezident İlham Əliyev və Peter Pelleqrini Şuşada mətbuata bəyanatlarla çıxış ediblər. Prezident İlham Əliyev bildirib ki, Slovakiya-Azərbaycan əlaqələrinin inkişafı uğurla gedir. Bizim siyasi təmaslarımız müntəzəm xarakter alır. Keçən ilin sonunda Slovakiyaya rəsmi səfərimi məmnunluqla xatırlayıram və mənə göstərilən qonaqpərvərliyə görə bir daha Sizə təşəkkürümü bildirmək istəyirəm. Doğrudan da belə dinamik əlaqələrin inkişafı iki tərəfin niyyətini göstərir. Bu gün biz bir çox məsələləri müzakirə etdik və bir daha gördük ki, gündəliyimiz kifayət qədər genişdir. Nümayəndə heyətlərinin tərkibinə baxmaq kifayətdir ki, hər kəs görsün hansı istiqamətlər üzrə fəal işlər gedir, dialoq gedir və təkcə dialoq yox, praktiki işlər.

Bu gün Slovakiya-Azərbaycan siyasi əlaqələri çox yüksək səviyyədədir və qarşılıqlı səfərlər bunu əyani şəkildə göstərir. 2024-cü ildə biz strateji tərəfdaşlığa dair Birgə Bəyannamə imzalamışıq və bəyannamənin icrası göz önündədir. Çünki belə fəal siyasi təmaslar və birgə layihələrin icra olunması, əlbəttə ki, güclü siyasi iradə tələb edir.

Biz çox şadıq ki, Slovakiya Qarabağın bərpasında fəal iştirak edir və biz bu gün cənab Prezidentlə birlikdə Ağdam rayonunun Baş Qərvənd kəndinə gedəcəyik. Orada Slovakiya şirkəti “Ağıllı kənd” layihəsini icra edir və bu layihə ilə tanış olacağıq. Bu dəstəyə və Qarabağın bərpasına verdiyiniz töhfəyə görə Sizə bir daha təşəkkürümü bildirmək istəyirəm.

Müzakirə edilən məsələlər arasında, təbii ki, ənənəvi məsələlər üstünlük təşkil edirdi. İqtisadi-ticari əlaqələr, energetika sahəsində, hərbi-texniki sahədə əməkdaşlıq və digər sahələr prioritet təşkil edir. Bütün bu məsələlər ətrafında çox səmimi və açıq müzakirələr aparılmışdır. Nümayəndə heyətlərinin üzvləri də bu gün və sabah - daim təmasdadırlar.

Prezidentin səfəri sabah Bakıda davam edəcək. Mənim dəvətimi qəbul etdiyi və o cümlədən səfərini Qarabağa etdiyi üçün cənab Prezidentə bir daha təşəkkürümü bildirmək istəyirəm. Bu, bir daha münasibətlərimizin nə qədər səmimi və mehriban olduğunu göstərir. Əminəm ki, bundan sonra da bu münasibətlər uğurla inkişaf edəcək. Çünki biz konkret işlərin tərəfdarıyıq. Hər iki tərəf ikitərəfli münasibətlərə çox böyük önəm verir və deyə bilərəm ki, son illər ərzində çox güclü tərəfdaşlıq yaradılmışdır.

Onu da bildirməliyəm ki, Prezident Pelleqrini Azərbaycana ilk dəfə səfər etmir. Deyə bilərəm ki, o, Slovakiyadan olan yüksəkvəzifəli şəxslər arasında birinci insan idi, hələ əvvəlki vəzifədə Azərbaycana səfər etmişdir - həm parlamentin sədri, həm də Baş nazir kimi. Prezident kimi bizim beynəlxalq iqlim konfransında iştirak etmişdir və bu gün də Azərbaycanda rəsmi səfərdədir.

Bir daha cənab Prezident, Sizi salamlayıram və Sizə xoş səfər arzulayıram.

Sonra Slovakiya Prezidenti bəyanatla çıxış edərək Azərbaycan Prezidentinə Qarabağda, Şuşa şəhərində təşkil etmək təşəbbüsünə, həmçinin səmimi qəbula görə bütün nümayəndə heyəti adından səmimi təşəkkürünü bildirib.

## Peter Pelleqrini: Azərbaycan mühüm regional iştirakçı, sabitliyin və inkişafın qarantıdır

Keçmişdəki görüşlərimiz əsnasında biz Qarabağ və onun gələcək inkişafı barədə xeyli danışmışıq. Bu səbəbdən bu gün nümayəndə heyətindəki həmkarlarımla birgə burada olmaq, bu bölgənin inkişafında əldə edilmiş böyük tərəqqini öz gözlərimizlə görmək böyük şərəfdir. Mən bu ərazinin azad edilməsindən sonra qısa müddət ərzində burada əldə olunmuş nailiyyətləri ehtiramla və iftixarla qeyd etmək istərdim. Eyni zamanda, mən olduqca şadam və fərəhlənirəm ki, slovak şirkətləri Qarabağın yenidən qurulmasında iştirak edirlər. Qəti şəkildə inanıram ki, onlar burada gələcəkdə icra olunacaq bir çox digər mühüm layihələrə davamlı şəkildə töhfə verəcəklər. Cənab Prezident, Sizin sözlərinizin təsdiqi olaraq qeyd edim ki, Slovakiya ilə Azərbaycan arasında strateji tərəfdaşlıq sadə formal bəyannamə deyil. Ölkələrimiz arasında münasibətlər standart diplomatik əlaqələrin hüdudlarını keçir. Biz, həqiqətən, dost ölkələrik. Biz bir-birimizə xeyli kömək edən və əla münasibətlərimizi konkret layihələrə, əyani əməkdaşlığa çevirən dostlarıq.

Mən, həmçinin şadam ki, nümayəndə heyətimdə Slovak Respublikası Hökumətinin yüksəkrütbəli nümayəndələri var. Bu gün və sabah onlar öz azərbaycanlı həmkarları ilə görüşə biləcəklər və cənab Prezident, Sizin vurğuladığınız əməkdaşlığın konkret sahələrini müzakirə edəcəklər. Mən, həmçinin şadam ki, nazirlərimizlə yanaşı, mərkəzi banklarımızın rəhbərləri də buradadır. Onların da müzakirə olunacaq bir çox mühüm məsələləri var.

Cənab Prezident, mən səmimiyyətinizə, həmçinin aramızda olan açıq və ürəkdən gələn dialoqa görə Sizə dərin təşəkkürümü bildirmək istərdim, çünki iki dost ölkənin dövlət başçıları məhz bu cür çalışmalıdırlar. Slovakiya praqmatik münasibətlər qurur, dünyanın istənilən yerində özünə tərəfdaş və dost axtarır. Çox məmnunam ki, Azərbaycan onların sırasındadır.

Azərbaycan mühüm regional iştirakçıdır. O, sabitliyin və inkişafın qarantıdır, Şərqlə Qərbi birləşdirən logistika və nəqliyyat marşrutlarının əsas qovşağı rolunu oynayır. Azərbaycan bu baxımdan mühüm əhəmiyyətə malikdir.

Cənab Prezident, mən, həmçinin enerji böhranı zamanı Azərbaycanın operativ cavabına görə Sizə və Azərbaycana təşəkkürümü bildirmək istərdim. Həmin vaxt Siz öz hazırlığınızı və arzunuzu bildirdiniz ki, ölkəmizə təbii qaz təchiz olunsun. Bütün bunlar qazın Ukrayna vasitəsilə tranziti dayandırıldıqdan sonra boşluğun doldurulmasına böyük töhfə idi. Şadam ki, nazirlərimiz 2027-ci ildən sonra enerji təchizatı üçün sabit, uzunmüddətli həll variantının tapılmasında müzakirələri davam etdirəcəklər. Cənab Prezident, mən çox məmnunam ki, bu gün günorta biz yenicə tikilmiş kəndi ziyarət edəcəyik. Mən, həmçinin səmimi minnətdarlığımı bildirmək istərdim ki, bu kənddə yaşayacaq uşaqlar üçün məktəb və ətraf sahə görkəmli tarixi şəxsiyyət, slovak generalı Milan Rastislav Ştefanikin adını daşıyacaq.



Beləliklə, Slovakiyanın irsi uzun müddət burada, Qarabağda olacaq və həmin məktəbə gedəcək bütün uşaqların, valideynlərin və müəllimlərin, həmçinin Slovakiyaya bağlılığı olacaq. Biz şadıq ki, Slovakiya ilə Azərbaycan arasında münasibətlər iqtisadiyyatın və diplomatiyanın hüdudlarını keçir. Hər iki ölkənin vətəndaşları get-gedə daha çox səfərlər edirlər. Oktyabrdan etibarən birbaşa uçuşlar başlayacaq. Cənab Prezident, çox məmnunam ki, Sizin Bratislavaya səfərinizdən sonra biz bu fürsəti elan etdik. Lakin indi - 2026-cı ildə bu, artıq reallıqdır. Bununla da iki ölkə bir-birinə daha yaxın olacaq, təhsil, insanlar arasında təmaslar və əlbəttə ki, biznes sahəsində əməkdaşlıq daha da asanlaşacaq.

Eyni zamanda, şadam ki, Azərbaycana səfərim zamanı məni böyük işgüzar nümayəndə heyəti müşayiət edir və sabah iqtisadiyyat nazirimiz öz azərbaycanlı həmkarı ilə birgə növbəti Azərbaycan-Slovakiya biznes-forumunu açacaqlar. Bununla da Slovakiya ilə Azərbaycan şirkətləri bir araya gələcək və ümid edirəm ki, onlar əməkdaşlıq üçün yeni imkanlar tapacaqlar. Bu, bizim Sizinlə ümumi tutduğumuz mövqeyə tam uyğundur. Yəni münasibətlərimiz yalnız birtərəfli ticarətə - bir tərəfin satdığına, digər tərəfin aldığına söykənməli deyil. Əksinə, biz mümkün qədər çox birgə layihələr istəyirik. Biz əməkdaşlığın qarşılıqlı şəkildə faydalı olacağı sahələrdə birgə işləmək istəyirik. Mümkün olan sahədə birgə istehsal etməyi, texnologiyanın ötürülməsini asanlaşdırmağı və birtərəfli deyil, hər iki ölkəyə fayda gətirəcək birgə layihələri həyata keçirməyi arzulayırıq.

Slovakiya Respublikası üçün təhlükəsizlik və sülh fundamental əhəmiyyət kəsb edir. Buna görə mən regionumuza təsir göstərən gərginliyin aradan qaldırılması, istər Rusiya ilə Ukrayna müharibəsi, istərsə də Yaxın Şərqdəki çətin vəziyyətin diplomatik həlli istiqamətində Prezident Əliyevin və Azərbaycanın bütün səylərini alqışlamaq istərdim.

Biz Slovakiyada qəti şəkildə inanırıq ki, müdafiə imkanlarının gücləndirilməsi, cari münaqişələrin qarşısının alınmasına maliyyə dəstəyinin göstərilməsi ilə yanaşı, Avropa liderləri danışıqlar masası arxasında diplomatik həll variantlarının tapılmasına daha çox vaxt ayırmalıdırlar ki, biz müharibəni öz qitəmizdən mümkün qədər tez çıxaraq və bütün regionların rifaha layiq inkişafına yenidən diqqət göstərək.

Mən, həmçinin təsdiqləmək istərdim ki, 2027-ci və 2028-ci illərdə Slovakiya Bakıdakı səfirliyi vasitəsilə NATO-nun Azərbaycanda Əlaqələndirici Səfirliyi kimi işini davam etdirəcək. Çox şadam ki, müdafiə nazirlərimiz təhlükəsizlik və müdafiə imkanları sahəsində əla əməkdaşlıq edirlər. Həmçinin şadam ki, Slovakiya birgə əməkdaşlığımızın və razılaşmalarımızın ilk nəticələrini bu ilin sentyabrında Bakıda keçiriləcək əsas müdafiə sərgisində göstərə biləcək.

Cənab Prezident, bizə vaxtımızı burada - Qarabağda və Bakıda keçirmək fürsəti yaratdığınıza görə Sizə olduqca minnətdaram. Bu günə qədər göstərdiyiniz dostluğa və əməkdaşlığa görə təşəkkür edirəm. Çox şadam, biz dialoq və birgə fəaliyyət nəticəsində davamlı olaraq, göstərəcəyik ki, Azərbaycan ilə Slovakiya arasında münasibətlər boş sözlərə əsaslanmır. Münasibətlər formal xarakter daşımır. Onlar konkret layihələrə və tutarlı tədbirlərə əsaslanır.

Gələcək görüşlərimizi səbirsizliklə gözləyirəm. Mən, həmçinin məmnunam ki, Siz mənim Azərbaycana etdiyim səfərləri xatırlayarkən bildirdiniz ki, hər dəfə yüksək siyasi vəzifədə olmuşam. Bununla, çıxışı daha şən notla bitirim. Görünür, hər dəfə Azərbaycana səfər edəndə hər işim yaxşı gedir və siyasi karyeram növbəti mərhələyə keçir. Buna görə də Sizə minnətdaram. Hər ikimizə daha çox yaxşı və dost görüşləri, ölkələrimizə isə davamlı rifah və əla münasibətlər arzu edirəm.

İyulun 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Slovakiya Respublikasının Prezidenti Peter Pelleqrini Şuşada Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvanın, Bülbülün və Üzeyir Hacıbəylinin işğal dövründə güllələnmiş büstlərinə baxıblar.

Prezident İlham Əliyev və Peter Pelleqrini iyulun 14-də Ağdam rayonunun Baş Qərvənd kəndində görülən işlərlə tanış olub, Milan Rastislav Ştefanik adına 840 şagird yerlik Baş Qərvənd kənd tam orta məktəb binasının təməlini qoyublar. Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov Azərbaycan və Slovakiya prezidentlərinə Ağdamın Baş Qərvənd kəndində görülən işlər barədə məlumat verib. Bildirilib ki, Baş Qərvənd kəndi Bərdə-Ağdam avtomobil yolunun və Bərdə-Ağdam dəmir yolu xəttinin sağ tərəfində, Ağdam şəhərinin mərkəzindən 18 kilometr məsafədə yerləşir. Uzun illər erməni işğalı altında qalan kənd 2020-ci il noyabrın 20-də azad edilib. Prezident İlham Əliyev kəndin təməlini 2023-cü il dekabrın 24-də qoyub. Hazırda kənddə zəruri sosial infrastruktur qurulur, o cümlədən inzibati və xidmət binaları inşa edilir. Burada çoxfunksiyalı inzibati bina, tibb məntəqəsi, tam orta məktəb, uşaq bağçaları olacaq. Kənddə ümumi uzunluğu 35 kilometr olan avtomobil yolları çəkilir, rabitə sistemi, elektrik, qaz, içməli su və çirkab suların axıdılması şəbəkələri yaradılır. Enerji daşıyıcılarına qənaət etmək məqsədilə Baş Qərvənd kəndində alternativ enerjidən istifadə olunacaq.

Azərbaycan və Slovakiya prezidentlərinə Milan Rastislav Ştefanik adına 840 şagird yerlik Baş Qərvənd kənd tam orta məktəbi barədə də məlumat verilib. Bildirilib ki, məktəbin ərazisi 3 hektardır. Binada ümumilikdə 35 sinif, texnologiya, hərbi hazırlıq, kompüter otaqları, kitabxana, fizika, biologiya və kimya laboratoriyaları yaradılacaq. Burada, eyni zamanda, akt və idman zalları, bufet və digər zəruri tədris infrastrukturu olacaq. Binanın elektrik təchizatını təmin etmək üçün Günəş panellərinin quraşdırılması nəzərdə tutulur. Məktəbin ərazisində həm şagirdlər, həm də sakinlər üçün qaçış zolağı olan geniş idman meydançası, oyun və istirahət sahələri yaradılacaq, yaşıllıq zolaqları salınacaq. Azərbaycan və Slovakiya prezidentləri məktəbin təməlini qoyublar.

Qeyd edək ki, Baş Qərvənd kəndinin inşasında Slovakiya şirkətləri iştirak edirlər. Kənddə inşa olunacaq məktəb isə Slovakiya tərəfindən Azərbaycana hədiyyə olunur.

Sonra dövlət başçıları kənddə inşa edilmiş evdə yaradılan şəraitlə tanış olublar. Diqqətə çatdırılıb ki, ümumi ərazisi 480 hektara yaxın olan kəndin tikintisi 2 mərhələdə aparılacaq. Birinci mərhələ 200 hektardan çox sahəni əhatə edir. Bu mərhələdə 3703 nəfərin yaşayışı üçün 851 fərdi ev inşa olunacaq. Evlərdən 170-i ikiotaqlı, 417-si üçotaqlı, 145-i dördotaqlı, 119-u isə beşotaqlıdır.

# IV Şuşa Qlobal Media Forumu...

## Prezident İlham Əliyev Forum iştirakçılarının suallarını cavablandırıb







əvvəli ötən sayımızda

İyulun 13-də Şuşada “Sülhün təşviqində medianın missiyası: Həqiqətin bərpası və etimadın yenidən qurulması” mövzusunda IV Şuşa Qlobal Media Forumunun açılış mərasimi keçirilib. Prezident İlham Əliyev tədbirdə iştirak edib, forum iştirakçılarının suallarını cavablandırıb.

**Moderator:** İqtisadiyyatın şaxələndirilməsi ilə bağlı çox maraqlı sual idi.

İndi isə sözü “Əl-Ərəbiyə” telekanalının aparıcısı xanım Leal Al Kateerə veririk.

**Leal Al Kateer:** Sabahınız xeyir. Təşəkkür edirəm, cənab Prezident. Sizi yenidən görmək çox xoşdur. Mən ötən il həm Bakıda, həm də Şuşada olmuşdum və bu müddət ərzində Şuşada görülən böyük inkişafın şahidi oldum. İlk növbədə, bu münasibətlə Sizi təbrik edirəm. Hazırda Yaxın Şərqdə görünməmiş dərəcədə mürəkkəb vəziyyət yaranıb və Azərbaycan İranla həmsərhəd ölkədir. Birinci sualım belədir: Sizcə, İranla uzunmüddətli sülhə nail olmaq mümkündürmü? İkinci sualım isə bundan ibarətdir ki, regionda gərginliyin daha da genişlənməsi fonunda, İran və Amerika Birləşmiş Ştatları arasında baş verən qarşıdurmanın təsirlərindən sərhədlərinizi qorumaq üçün gələcək planlarınız nədən ibarətdir? Çünki burada söhbət yalnız Yaxın Şərqdən getmir, sanki bütün dünya ABŞ-İran müharibəsində iştirak edir.

**Prezident İlham Əliyev:** Çox sağ olun. Sizi yenidən görməyə çox şadam. Gəldiyiniz üçün təşəkkür edirəm. Həqiqətən də biz hazırda müharibələrin əhatəsində yerləşən bir bölgədəyik. Şimalımızda müharibə vəziyyətində olan bir qonşumuz, cənubumuzda isə müharibə aparan digər qonşumuz var. Biz isə onların arasında yerləşirik. Əlbəttə ki, belə bir şəraitdə ölkəmizi qorumaq və eyni zamanda, imkan daxilində, münaqişənin sülh yolu ilə həllinə töhfə vermək bizim üçün böyük əhəmiyyət kəsb edir. Bəli, biz sülhün mümkün olduğuna inanırıq. Hesab edirəm ki, bunu təkcə biz deyil, həm də bu qarşıdurmanı və qan tökülməsini dayandırmaq üçün əllərindən gələni edən vasitəçi ölkələr də düşünürlər. Xüsusilə Pakistanı, əziz dostum Baş nazir Şahbaz Şərifi və Feldmarşal Asim Muniri qeyd etmək istərdim. Onlar Amerika Birləşmiş Ştatları ilə İran arasında vasitəçilik səylərində həqiqətən çox böyük iş gördülər və mühüm uğur qazandılar.



Təəssüf ki, bu, uzun sürmədi. Lakin ümid edirəm ki, hazırkı münaqişənin alovlanması da uzun sürməyəcək. Ona görə də mən əminəm ki, sülh mümkündür. Əks təqdirdə, buna inanmadan yaşamaq çox çətin olar.

Düşünürəm ki, əsas məsələ sülh əldə edildikdən sonra regionun necə görünəcəyi olacaq. Bu baxımdan müxtəlif ssenarilər və müxtəlif variantlar mövcuddur. Təbii ki, bir çox ölkələr öz strateji baxışlarına uyğun siyasət yürüdürlər. Azərbaycana gəldikdə isə, bizim yeganə istəyimiz sərhədlərimiz boyu sülhün hökm sürməsidir. Çünki ölkə daxilində sülh şəraitində yaşadığınız halda sərhədləriniz boyunca döyüşlər gedirsə, siz heç vaxt özünüzü təhlükəsiz hiss etmirsiniz.

Azərbaycanda cəmi bir ildən az müddətdir ki, sülh şəraitində yaşayırıq. Biz 30 il müharibə şəraitində yaşamışıq. Əvvəl Birinci Qarabağ müharibəsi oldu, sonra atəşkəs dövründə müxtəlif qarşıdurmalar yaşandı, ardınca müxtəlif gərginliklər baş verdi və nəhayət, İkinci Qarabağ müharibəsi oldu. Beləliklə, biz müharibəsiz həyatı təsəvvür belə edə bilmirdik. Cəmi bir ildən azdır ki, sülh şəraitində yaşayırıq və bunun inkişaf, investisiyalar, insanların psixoloji durumu və cəmiyyətdə hökm sürən ab-hava baxımından verdiyi faydaları görürük. Bunun çoxsaylı müsbət təsirləri var. Əlbəttə, biz istərdik ki, cənubumuzda da, şimalımızda da mümkün qədər tez sülh bərqərar olsun. Lakin bu sülh ədalətli olmalı, beynəlxalq hüquqa əsaslanmalı, hər hansı bir tərəfin ambisiyaları və ya gündəliyi üzərində qurulmamalıdır. Beynəlxalq hüquq istənilən sülh üçün universal platformadır. Ermənistanla müharibəmizə nəzər salsaq, biz hər zaman beynəlxalq hüququn tərəfində olmuşuq. Biz özümüzü müdafiə edirdik.1990-cı illərin əvvəllərində torpaqlarımız işğal olundu və bundan sonra biz münaqişəni sülh yolu ilə həll etməyə çalışdıq. Lakin bu, mümkün olmadı.

Sonra biz suverenliyimizi bərpa etmək üçün gücdən istifadə etdik. Biz buna nail olduq və daha irəli getmədik. Biz dayandıq və bu, çox vacib idi. Düşünürəm ki, silahlı qarşıdurmanın ən qızğın mərhələsi başa çatdıqdan sonra ən vacib məqamlardan biri məhz vaxtında dayanmağı bacarmaqdır. Bu, asan deyil və biz bunu yaxşı anlayırıq. Biz 30 il qəlbimizdə bu yara ilə yaşamışıq. Lakin dayanmalı olduğumuz anda dayandıq.

Biz müharibəni sonsuz etməmək üçün dayandıq. Başqa seçimlərimiz də ola bilərdi. Lakin məsuliyyət və müdriklik tələb edirdi ki, biz dayanaq. Çünki dayanmasaydıq, Ermənistanla müharibə davam edəcəkdi. Bəlkə də aşağı intensivliklə davam edən bir müharibəyə çevriləcəkdi. Müəyyən vaxtdan sonra yenidən alovlanacaq, sonra yenidən səngiyəcəkdi və insanlar həlak olacaqdılar.

Ona görə də Yaxın Şərqdə də silahlı qarşıdurmanın ən qızğın mərhələsi başa çatdıqdan sonra Körfəz Əməkdaşlıq Şurasına üzv dövlətlər və İran dayanmalıdırlar. Əlbəttə, biz ermənilərin xalqımıza qarşı törətdiklərini heç vaxt unutmayacağıq. Onların şəhərlərimizi necə dağıtdıqlarını, günahsız qadınları və uşaqları necə qətlə yetirdiklərini, Xocalıda soyqırımı törətdiklərini heç vaxt unutmayacağıq. Biz bunu heç vaxt unutmayacağıq.

Lakin eyni zamanda, başa düşürük ki, sülh əldə olunmalı olan ən ali məqsəddir. Buna görə də hesab edirəm ki, burada çoxlu psixoloji və emosional amillər, cavab vermək, qisas almaq istəyi olacaq. Mənim qonşularımıza mesajım məsuliyyətli olmaq, mümkün qədər tez dayanmaq, münasibətləri normallaşdırmağa çalışmaq və bu prosesi qlobal münaqişəyə çevriləcək səviyyəyədək eskalasiya etdirməməkdir. Bu, çox böyük təhlükədir və mən hər kəsi məsuliyyətli olmağa çağırıram. Ümid edirəm ki, dostlarımızın, bir daha qeyd edirəm, Pakistanın vasitəçilik səyləri qarşıdurmanın dayandırılması ilə nəticələnəcək.

**Moderator:** Beləliklə, Avropadan ABŞ-yə, oradan isə Yaxın Şərqə keçdik. İndi isə Afrikaya üz tuturuq. Növbəti sualı vermək üçün bu gün bizimlə birlikdə olan “Voice of Congo” media qurumunun baş direktoru cənab Sedrik Monzye Ayunduya söz veririk.

**Sedrik Monzye Ayundu:** Cənab Prezident, mən Konqo jurnalistiyəm. Azərbaycana və Bakı Təşəbbüs Qrupuna səsləri təcrid olunan, fikirləri bilərəkdən səhv verilən və ya qlobal media gündəliyindən məhrum edilən xalqlar və icmalara beynəlxalq platformanı yaratdıqlarına görə dərin təşəkkürümü bildirmək istəyirəm. Fransa uzun müddət özünü demokratiya, insan hüquqları və ifadə azadlığının carçısı kimi təqdim edib. Lakin onun dəniz ərazilərində və bir çox digər regionlarda müstəmləkə qalıqları hələ də hiss olunur və yerli icmalar reallığı təşviq edəndə ciddi çətinliklərlə üzləşir. Onların ləyaqət, mədəni özünəməxsusluğu, siyasi hüquqları və öz müqəddəratını təyin etmək hüququ tez-tez hökmranlıq edən təfsirlərlə süzgəcdən keçirilir, müstəqil səslər kənara sıxışdırılır. Bundan əlavə, həmin icmalara dəstək verməyə, Bakı Təşəbbüs Qrupu kimi təşkilatlarla əməkdaşlıq etməyə çalışanlara ədalətsiz olaraq hibrid döyüşçülər adı verilir, yalnız ona görə ki, onlar artıq qəliblənmiş müstəmləkə söhbətlərini sual altına çəkir və rahat olmayan həqiqəti beynəlxalq ictimaiyyətə çatdırır.

Bu gün dünyada informasiya üzərində nəzarət siyasi və ya iqtisadi nəzarət kimi güclü ola bilər. Cənab Prezident, Sizin fikrinizcə, müstəqil media nümayəndələri sadəcə reaksiya deyil, sözün əsl mənasında, müstəmləkə və neomüstəmləkə hekayətlərini necə dəyişə bilər və hüquqları, tarixi, istəkləri uzun müddət səhv verilmiş yaxud susdurulmuş xalqlar üçün daha güclü, daha inandırıcı beynəlxalq mövqeni necə qura bilər?

**Prezident İlham Əliyev:** Bilirsiniz, biz Avropa Şurasına qəbul olunarkən mən Azərbaycan nümayəndə heyətinin ilk rəhbəri idim və Strasburqa gəlmişdim. Nümayəndə heyətimizin Avropa Şurası rəhbərliyindən eşitdiyi ilk fikirlərdən biri bu idi ki, insan hüquqları heç bir ölkənin daxili işi hesab edilə bilməz. Biz yaxşı tələbələr idik və bunu öyrəndik. İndi isə Bakı Təşəbbüs Qrupu müstəmləkəçilik, müstəmləkə əsarəti və müstəmləkəçilikdən irəli gələn bərabərsizlik məsələlərini qaldıranda, onlar ittiham olunurlar. Təkcə onlar deyil, hətta Azərbaycan Hökuməti də Fransanın daxili işlərinə qarışmaqda ittiham olunur. Halbuki biz belə etmirik.

Çünki insan hüquqları ilə bağlı məsələlər ümumbəşəri məsələlərdir. Bakı Təşəbbüs Qrupu isə bu mövzunu qlobal gündəliyə çıxaran, bəlkə də ilk və ən səmərəli qeyri-hökumət təşkilatıdır. Uzun illər ərzində Fransanın qondarma dənizaşırı əraziləri, əslində isə faktiki müstəmləkələri təzyiqlərə məruz qalıblar. Orada müxtəlif qanunsuz əməllər törədilib, o cümlədən nüvə sınaqları keçirilib. Polineziyada nə qədər nüvə sınağı keçirilib? Bəlkə 100, bəlkə 200, bəlkə də daha çox. Bunun nəticəsində çox sayda insan zərər çəkib. Çox sayda insan həyatını itirib, sağlamlığına ciddi zərər dəyib. Bakı Təşəbbüs Qrupu isə bu məsələni gündəmə gətirdiyinə görə, təəssüf ki, əsassız olaraq hansısa hibrid müharibə aparmaqda ittiham edilir. Bu, tamamilə ədalətsizdir. Hesab edirəm ki, müstəqil medianın rolu çox böyük əhəmiyyət daşıyır.

Siz çox mühüm bir məsələyə toxundunuz. Uzun illər ərzində Yeni Kaledoniya, Polineziya, Martinika və digər ərazilərdə mövcud problemlərlə bağlı eşidilən o çox zəif səslər koordinasiyalı şəkildə aparılan hücum qruplarının təzyiqi nəticəsində susdurulurdu. Onlara qarşı təzyiqlər göstərilir, hədələr edilirdi. Hətta mənə verilən məlumata görə, Bakı Təşəbbüs Qrupunun təşkil etdiyi beynəlxalq tədbirlərdə iştirak edən bəzi şəxslər saxlanılıblar. Yeri gəlmişkən, onlar təkcə Fransada deyil, İsveçrədə də saxlanılıblar. Onlardan bəziləri hətta həbs olunublar. Bütün bunlar isə insan hüquqlarından danışan, dünyaya demokratiyanın nə olduğunu öyrətməyə çalışan şəxslərin gözü qarşısında baş verir. Bilirsiniz, bumeranq çox təsirli silahdır. Bunu nəzərə almaq lazımdır. Demək istədiyim odur ki, Azərbaycana hücum etmək istəyənlər bizi lazımınca qiymətləndirmədilər.

Lakin bir daha qeyd etmək istəyirəm ki, bu məsələ Bakı Təşəbbüs Qrupunun fəaliyyət çərçivəsindən qat-qat genişdir. Hesab edirəm ki, medianın rolu olduqca mühümdür. Siz də qeyd etdiyiniz kimi, buna görə sizə bir daha təşəkkür edirəm. Media, mən deyərdim ki, bu müstəmləkəçiliyə qarşı çıxmaq üçün kifayət qədər cəsarət nümayiş etdirməlidir. Çünki söhbət bizim Fransa ilə münasibətlərimizdən getmir.

Bilirsiniz, Fransa ilə münasibətlərimizə gəlincə, bəli, Fransanın ölkəmizin suverenliyinə münasibəti və qondarma “Dağlıq Qarabağ respublikası”nın tanınması ilə bağlı Fransada qəbul edilmiş qərarlar münasibətlərimizə müəyyən dərəcədə mənfi təsir göstərib. Hətta bu gün də Fransada mövcud olmayan qondarma “Dağlıq Qarabağ”ın qondarma səfirliyi fəaliyyət göstərir. Lakin bunlar nisbətən kiçik məsələlərdir. Söhbət Fransa ilə münasibətlərimizdən getmir. Söhbət beynəlxalq davranışın fundamental prinsiplərindən gedir. XXI əsrdə sizdən 10 min kilometr uzaqlıqda yerləşən müstəmləkəyə sahib ola bilməzsiniz, xüsusilə də həmin ərazidə yaşayan insanlar sizi istəmirlərsə. İnsanlar öz həyatlarını özləri qurmaq istəyirlər. Yeni Kaledoniyadan və ya digər ərazilərdən daha kiçik olan, lakin dövlətçiliyə malik, Birləşmiş Millətlər Təşkilatında səsini ucalda bilən və öz bayrağı olan çox sayda ölkə var. Nə üçün onlar da bu hüquqa malik olmasınlar?



Hesab edirəm ki, bu məsələ həm dövlətlərin, həm də vətəndaş cəmiyyətinin mövqeyini müəyyən edən mühüm bir sınaqdır. Düşünürəm ki, əgər dünyanın müxtəlif bölgələrində Bakı Təşəbbüs Qrupu kimi daha çox təşkilat fəaliyyət göstərsə, onlar belə qeyri-hökumət təşkilatlarının bir növ koalisiyasını yarada bilərlər. Həmin koalisiya isə bu problemlərin daha yüksək səslə gündəmə gətirilməsi və bu təzyiqə son qoyulması istiqamətində daha təsirli fəaliyyət göstərə bilər.

Söhbət təkcə Yeni Kaledoniyadan getmir. Belə ərazilərin bir çoxu hətta Avropanın özündə də mövcuddur. Korsikaya baxın, o, Avropanın lap mərkəzində yerləşir. Orada yaşayan insanlar öz həyatlarını özləri qurmaq istəyirlər. Öz dillərini qorumaq istəyirlər. Öz kimliklərinə hörmətlə yanaşılmasını istəyirlər. Onlar Fransa ərazisini işğal etmək niyyətində deyillər. Sadəcə olaraq əcdadlarının torpaqlarında ləyaqətlə, kənardan idarə olunmadan və xarici hökmranlıq olmadan yaşamaq istəyirlər.

Bilirsiniz, bu məsələlərə bu qədər həssas yanaşmağımızın səbəblərindən biri də odur ki, biz özümüz müstəmləkə şəraitində yaşamışıq. Biz XIX əsrdə müstəmləkəyə çevrildik və müstəmləkə kimi yaşadıq. Daha sonra Sovet İttifaqı yaradıldıqda isə biz müstəqil deyildik, Sovet İttifaqının tərkibində idik. Respublika idik? Bəli, amma heç bir real hüquqa malik olmayan bir respublika. Müstəmləkə kimi yaşamağın nə demək olduğunu da, azad olmağın nə demək olduğunu da tarixi yaddaşımızdan yaxşı bilirik.

Məsələn, XIX və XX əsrlərdə müstəmləkəçilik dövründəki Azərbaycanla bugünkü Azərbaycanı müqayisə etsəniz, aradakı fərqin gecə ilə gündüz qədər olduğunu görərsiniz. Onlar bizim yalnız sərvətlərimizi talayırdılar. Azərbaycandan milyardla barel deyil, milyard tonlarla neft hasil olunmuşdu. Sovet İttifaqı dağıldıqda isə biz təbii qazsız və elektrik enerjisiz qalmışdıq.

Bu gün də Bakının ətrafındakı çirklənmiş ərazilərin təmizlənməsi ilə məşğuluq. Sərvətlərimizi istismar edənlərin təbiətimizə vurduğu zərərin aradan qaldırılması üçün milyardlarla vəsait xərcləyirik. Ötən otuz ildən çox müddətdə isə Azərbaycan, artıq qeyd olunduğu kimi, orta gücə malik dövlətə çevrilib. Məhz müstəqilliyin bəhrəsi budur. Sovet İttifaqı dağılanda xatırlayıram ki, Rusiyada bir çox analitiklər deyirdilər: “Bu respublikalar məhv olacaq. Onlar mərkəz olmadan yaşaya bilməyəcəklər”.

Bəs nə baş verdi? Onların hamısı normal həyat yaşayır. Bəziləri daha firavan, bəziləri isə nisbətən az firavan yaşayır, amma onların heç biri məhv olmadı. Müstəqilliyin üstünlüyü də məhz budur. Məhz buna görə biz Yeni Kaledoniyanın, Polineziyanın, Martinikanın və Sen-Martenin müstəqilliyini, azadlığını dəstəkləyirik. Bir daha qeyd etmək istəyirəm ki, bunun Fransa ilə münasibətlərimizə heç bir aidiyyəti yoxdur.

Bu məsələ yanlış şərh olunur və bəzən bizə qarşı istifadə edilir. Ümidvaram ki, mənim mesajlarım düzgün qəbul ediləcək və Parisdə də lazımi şəkildə dəyərləndiriləcək. Çünki hazırda biz münasibətlərimizin normallaşdırılması prosesindəyik.

Onlar bizi tənqid edirlər, biz də onları tənqid edirik. Bu, normaldır. Bu, hər hansı hücum deyil. Bu, iki suveren dövlət arasında işgüzar münasibətlərin təzahürüdür. Hər iki dövlət bərabərhüquqludur. Heç biri digərindən üstün deyil və heç kəs digərinə nə etməli olduğunu diktə edə bilməz. Lakin öz mövqeyini ifadə etmək, narahatlığını bildirmək və tənqid etmək tamamilə normaldır. Sizə uğurlar arzulayıram. Çox sağ olun.

davamı 4-cü səhifədə

# IV Şuşa Qlobal Media Forumu...

## Prezident İlham Əliyev Forum iştirakçılarının suallarını cavablandırıb



əvvəli 3-cü səhifədə

**Moderator:** İnformasiyaya nəzarətin təsiri ilə bağlı çox maraqlı sual idi. Qarşıdakı iki gün ərzində müzakirə edəcəyimiz mövzu ilə də tam səsləşir.

İndi isə sözü "Media Gordon Ukraine"ın təsisçisi və jurnalisti Dmitri Qordona veririk. Dmitri ön sırada əyləşib.

**Dmitri Qordon:** Hörmətli cənab Prezident, icazə verin, əvvəlcə, milyonlarla ukraynalının adından Rusiyanın günahı ucbatından gözəl Ukraynanın məruz qaldığı qorxulu faciəyə göstərdiyiniz şəfqət və sırf insani münasibətə görə dost Azərbaycan xalqına və şəxsən Sizə minnətdarlığımı bildirim. Düz bir il əvvəl bu salonda Sizdən soruşdum: Ukraynaya nə məsləhət görərdiniz? Siz isə cavab verdiniz: İşğalı heç vaxt qəbul etməyin. Bir il keçdi və çox şey dəyişdi. Bu gün bütün dünya Krımın faktiki olaraq quru, dəniz və havadan mühasirəyə alındığını görür. Bu gün bütün dünya kilometrlərlə uzunluğunda benzin növbələri ilə ən zəngin neft istehsal edən ölkələrdən birini görür. Cəbhə xəttinin mahiyyətcə dəyişmədiyini, dəyişməz qaldığını görürük. Ukrayna dronlarının və raketlərinin Moskva və Sankt-Peterburqdan Sibirə qədər geniş ərazini vurduğunu görürük. Belə bir yeni vəziyyətdə bu gün Ukraynaya hansı məsləhəti verərdiniz? Bəlkə belə bir sual da verim: Mənim fikrimcə, artıq heç bir yaxşı çıxış yolu olmayan Putinə bu gün hansı məsləhəti verərdiniz?

**Prezident İlham Əliyev:** Sağ olun. Sizi yenidən görməyimə şadam. Dəvətimizi qəbul edərək Qarabağa yenidən səfər etdiyinizə görə sağ olun. Azərbaycan xalqının ukraynalılara, Ukraynaya münasibəti barədə söylədiyiniz xoş sözlərə görə də sağ olun. Bütün bunlar təmiz ürəkdən gəlir. Sizin ötənilki sualınıza və mənim tövsiyəmə gəldikdə, zənnimcə, nə Ukrayna xalqı, nə də Ukrayna hökumətinin mənim məsləhətimə ehtiyacı yox idi, amma mən onu bu gün də təkrar edəcəyəm: Heç vaxt işğalla barışmamaq. Ukrayna bunu edir. O, işğalla barışmır. Bu il ərzində çətin məqamlar olsa da, biz gördük, bilirik və eşitdik ki, müəyyən dairələr mahiyyətcə işğalın qanuniləşdirilməsi, döyüş əməliyyatlarının dayandırılması şərti ilə təzyiq göstərirdi. Amma Ukrayna xalqı və onun rəhbərliyi bunu qəbul etmədi.

Qarşı tərəfə məsləhətlərə gəldikdə, əgər onlar məndən soruşsalar, əlbəttə ki, məsləhət verərəm. Amma indi, zənnimcə, sizin sualınız çərçivəsində bu məsləhətləri vermək o qədər də düzgün olmazdı. Amma vəziyyətə və davam edən hərbi əməliyyatların perspektivlərinə dair qiymətləndirməmə gəldikdə, düşünmürəm ki, bu, sizinkindən çox da fərqlənmir. Fikrimcə, bu müharibəni dayandırmağın və həm də dərhal dayandırmağın lazım olduğu çoxdan başa düşülməli idi. Bu, Azərbaycanın mövqeyidir və mənim də sırf insani mövqeyimdir. Bu, işğal altında olan ərazilərini azad edən bir ölkəyə rəhbərlik edən və rəhbərlik etməkdə davam edən bir insanın mövqeyidir. Düşünürəm ki, bu təcrübə tarixdə olduqca nadirdir, çünki həm işğal, həm də kobud desək, Qarabağı təhvil verməyə məcbur etmək cəhdləri ilə bağlı təcrübəmiz var. Mən bunu dəfələrlə demişəm: ABŞ, Fransa və Rusiyanın rəhbərlik etdiyi bu Minsk qrupu yalnız Qarabağı, yəni təkcə Qarabağı deyil, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin inzibati sərhədlərini deyil, həm də Laçın və Kəlbəcər rayonlarının bütün ərazisini əlimizdən alıb Ermənistana vermək istəyirdi ki, biz buna razı olaq. Bunun müqabilində bizə olduğumuz yerdən şərqə doğru beş rayonun qaytarılması vəd edilirdi. Amma nə mən, nə də Azərbaycanda heç kim buna razı olmazdı. Lakin bu, üç aparıcı ölkənin konsolidasiya olunmuş mövqeyi idi, ən azından onların Təhlükəsizlik Şurasının daimi üzvləri, mən bu termindən istifadə edirəm - dünyanın aparıcı dövlətləri olduqlarını nəzərə alsaq, bu mövqeyə müqavimət göstərmək olduqca çətin idi. İkinci Qarabağ müharibəsi başlayanda onların hamısı dərhal dayanmağı tələb edirdi. Bəziləri çox, digərləri az bezdirici şəkildə qorxudur, təhdid edir, zəng edirdilər. Amma hamısı istəyirdi ki, biz dayanaq, hər şeyi olduğu kimi saxlayaq. Bir məqamda bəziləri təklif edirdi: "Yaxşı, Füzuli azad edilib, amma dayanın". Müxtəlif diplomatik mexanizmlərdən istifadə etməli olduq. Xarici işlər nazirimizi Moskvada, Vaşinqtonda və Avropada çoxsaylı görüşlərə göndərdim. Belə bir məqsəd var idi - Azərbaycanın öz ərazisini bərpa etməsinə imkan verməmək. Lakin bu məqsədə nail olunmadı, çünki xalqın iradəsini qırmaq mümkün deyil. Müstəqillik uğrunda mübarizə aparan, kimliyini qoruyan bir xalqı məğlub etmək, onları məhv etmək, başqalarının iradəsini zorla qəbul etdirmək mümkün deyil. Bu anlayış hələ də hərbi əməliyyatların davam etdirilməsi uğrunda çıxış edənlərə agah olmalıdır.



Prezident Zelenskinin mövqeyi mənə məlumdur. O, bu barədə ictimaiyyətə açıq danışıb. Aprel ayında bizi ziyarət edəndə, bu mövzu barədə - təmas xətti boyunca hərbi əməliyyatların dərhal dayandırılmasına dair ətraflı müzakirə aparmışıq. Bu təklifin hələ də nə dərəcədə aktual olduğunu bilmirəm, bunu demək mənim üçün çətindir, amma hər halda, o, bunu açıq şəkildə geri götürməyib.

Buna görə də düşünürəm ki, istənilən halda, Azərbaycanın mövqeyinə gəldikdə, o, dəyişməz olaraq qalır. Biz həmişə Ukraynanın ərazi bütövlüyünü, suverenliyini və sərhədlərinin toxunulmazlığını dəstəkləmişik, dəstəkləyirik və dəstəkləməyə davam edəcəyik. Heç bir dövlətin sərhədləri zorla və ya həmin ölkə xalqının razılığı olmadan dəyişdirilə bilməz. Burada, təbii ki, bizim mövqeyimiz olduqca ardıcıl və qətidir. Biz həmişə Ukrayna xalqına, necə deyərlər, əlimizdən gələn köməyi etməyə hazırıq. Bu mövzuda çox danışmaq istəmirəm. Biz bunu sadəcə danışmaq üçün etmirik. Bu, sadəcə, ürəkdən gəlir. Bu, dövlətlərə və yeri gəlmişkən, təkcə onlara deyil, adi insanlara, kommersiya şirkətlərinə də aiddir. Yəni bu, ağır vəziyyətdə olanlara, əziyyət çəkənlərə, ərazi bütövlüyü pozulanlara yardım etmək və əlimizdən gələn hər cür köməyi göstərmək üçün vahid səydir.

Gəldiyiniz üçün bir daha təşəkkür edirəm.

**Moderator:** İndi isə növbəti qonağımıza - qlobal kommunikasiya şirkəti "Yurovich Communications"ın baş icraçı direktoru, eyni zamanda Soxnut - Yəhudi Agentliyinin Azərbaycandakı fəxri səfiri cənab Roman Yuroviçə söz veririk.

**Roman Yuroviç:** Sabahınız xeyir. Cənab Prezident, bu yüksəksəviyyəli və çox mötəbər forumun işində iştirak etmək imkanına görə çox sağ olun. Buraya hər bir gəlişim mənim üçün çox təsiredici və həyəcanvericidir.

Mən bunu soruşmaq istəyirdim. Son illərdə Bakı getdikcə daha vacib beynəlxalq təsir mərkəzinə, konstruktiv diplomatiya mərkəzinə çevrilib və bu, bütün dünyada qəbul edilir. Bu, təkcə iqtisadiyyata aid deyil, çünki Orta Yol həm dəniz, həm də quru yolu ilə Azərbaycandan keçir və bu, inkişaf edir. Bu, siyasətə də aiddir. Bir-biri ilə danışa bilməyən tamamilə fərqli ölkələrin liderləri, necə deyərlər, hansısa nəticəyə nail olmaq üçün onlara kömək xahişi ilə Bakıya müraciət edirlər. Amerika Birləşmiş Ştatları, İran, İsrail, Türkiyə, Suriya kimi ölkələr, Azərbaycanın onlara kömək edə, prinsipial məsələlərin həllinə təsir göstərə biləcəyini qəbul edirlər.

Mənim sualım bundan ibarətdir: Azərbaycanın torpağında, siyasi mədəniyyətində və rəhbərliyində mövcud olan nədir ki, o, ölkəyə ən mürəkkəb məsələlərin - bir-birinə etibar etməyən, lakin nədənsə Azərbaycana etibar edən ölkələrə təsir edən məsələlərin həlli üçün tanınmış beynəlxalq mərkəzə çevrilmək gücü verir? Sağ olun.

**Prezident İlham Əliyev:** İfadə etdiyiniz fikirlərə görə sağ olun, sualda da sizin bizim rolumuza verdiyiniz qiymət səsləndi. Amma burada, yəqin ki, sualın cavabı çox uzun olacaq. Amillər çoxdur.

Amma düşünürəm ki, etimadı birinci yerə qoyardım. Həm də Azərbaycanın səmimiyyətinə etimadı. Çünki qeyd etdiyiniz bütün hallarda və onların bir çoxunda normallaşdırma səylərində iştirak üçün bizə müraciət edən hər kəs inanırdı və başa düşürdü ki, bizim heç bir gizli niyyətimiz yoxdur. Bu, həqiqətən də belədir, heç vaxt olmayıb. Biz həmişə bacardığımız yerdə səmimiyyətlə kömək etmək istəmişik.

Bu, bir növ dövlətimizin davranış xəttidir və kifayət qədər dayanıqlı olub. Kömək etmək imkanı varsa, etməliyik. Əgər yoxdursa, yox deməliyik. Bir vaxtlar kömək etmək imkanımız yox idi, amma indi var - həm maddi, həm siyasi və həm də digər formalarda.

Buna görə də düşünürəm ki, etibar birinci yerdədir, məxfi məlumatların sızmayacağı və heç bir yerə sızmadığı - hər halda, sızsa belə, bunun bizdən olmayacağı fikridir.

İkincisi, öz aralarında ortaq dil tapa bilməyənlərin hamısı ilə dürüst olacağımıza səmimi bir inamdır. Bu cür hallar həm keçmişdə, həm də yaxın tarixdə çox olub.

Əlbəttə ki, bu, çox sevindiricidir. Bu göstərir, o dərəcədə etibarlı münasibətlər qurmuşuq ki, bu münasibətlər sadəcə vacib məsələləri müzakirə etməklə və gərginliyi azaltmaqla bəzi ölkələr üçün faydalı olmağımıza imkan verir. Həm də bu, regional siyasət amilinə çevrilir. Buna görə də bu gün Azərbaycanın regional məsələlərdə, minimum regional məsələlərdə rolu təbii olaraq artır. Bu rol müsbətdir, konstruktivdir və mümkün olan yerlərdə kömək göstərmək üçün imkan daxilində yardımlara davam edəcəyik.

Həm də düşünürəm ki, həmçinin mühüm olan digər vacib amil də artıq bir az bəhs etdiyim məsələdir. Qoşulmama Hərəkatı 120 ölkəni əhatə edir və onların bir çoxu bir-birini o qədər də çox sevmir, bəziləri hətta müharibə vəziyyətindədir. Amma biz seçiləndə və üç il sonra da hamısı yekdilliklə Azərbaycana səs verdi. Çünki seçiləndə, demək olar ki, biz kampaniya apardıq, özümüz barədə yaxşı şeylərdən danışdıq, amma üç il ərzində dediklərimizin hamısını etdik. Üç ildən sonra yeni sədr seçməkdə çətinliklər yarananda bizə müraciət etdilər: "Gəlin səlahiyyət müddətini uzadaq". Yenə də hamı yekdilliklə səs verdi. Eyni şey bu regional formatda da baş verir, insanlar bizə dürüstlüyümüzə və necə deyərlər, bizdə belə bir söz var - "ağzıbütöv" olmağımıza görə etibar edirlər - elədir? Bunu rus dilinə necə tərcümə edəcəyimi bilmirəm, elə deyilmi? Ağzına qıfıl vurmaq - eləmi? Düşünürəm ki, buna görə də bizə belə münasibət var.

**Moderator:** Çox sağ olun. Daha bir maraqlı sual idi. İndi isə növbəti qonağımız, siyasi elmlər və beynəlxalq münasibətlər üzrə magistr, Rusiya Beynəlxalq Əlaqələr Şurasının aparıcı eksperti cənab Aleksey Naumova söz veririk.

**Aleksey Naumov:** Cənab Prezident, burada olmaq imkanı yaratdığınıza görə çox sağ olun. Bu, mənim üçün doğma olan yurda, Azərbaycana onuncu və Qarabağa ikinci səfərimdir. Cəmi bir neçə ildə baş verən transformasiyanı görmək heyrətamizdir. Bu, həqiqətən də ilhamvericidir. Çox sağ olun.

Sualım belədir: Cənab Prezident, dəfələrlə qeyd etmisiniz ki, Azərbaycanla Rusiya arasında münasibətlər qarşılıqlı dəstəyə, anlaşmaya və dostluğa əsaslanır. Prezident Putin də bildirib ki, hazırda



Azərbaycanla münasibətlər yaxşıdır və mövcud olan obyektiv çətinliklərə baxmayaraq, xalqlarımızın xoşbəxtliyidən, onların aradan qaldırılmasına inanmaq üçün əsas var. Cənab Prezident, xahiş edirəm deyəsiniz, bu gün Rusiya ilə Azərbaycan arasında münasibətləri və hazırda öz inkişafının ən vacib mərhələlərindən birini yaşayan yeni Cənubi Qafqazda Rusiyanı necə görürsünüz? Çox sağ olun.

**Prezident İlham Əliyev:** Sağ olun. Bir daha demək istəyirəm ki, biz Rusiya ilə münasibətlərimizə dəyər veririk və Prezident Putin də daxil olmaqla, Rusiya



Federasiyası rəsmilərinin ölkələrimiz arasında münasibətlərin çox müsbət dinamikaya malik olması barədə bəyanatlarını da gördük. Siz çətinlikləri qeyd etdiniz, bəli, biz hamımız onları bilirik. Amma mühüm olan odur ki, bu proses artıq geridə qalıb. Həm də deyərdim ki, münasibətlər tam normallaşıb, müxtəlif səviyyələrdə təmaslar baş tutub: hökumət səviyyəsində, hökumət üzvləri, hökumətlərarası komissiyaların həmsədrləri, Xarici İşlər nazirlikləri və Prezident administrasiyaları arasında. Beləliklə, düşünürəm ki, bu istiqamətdə hər şey yaxşı gedir və biz buna şadıq.

Rusiya ilə Azərbaycan arasındakı münasibətlər həm ikitərəfli formatda, həm də daha geniş coğrafiyada əhəmiyyətlidir. Onlar həm ənənəvi qarşılıqlı fəaliyyət sahələrini, həm də yarana biləcək yenilərini əhatə edir. Əlbəttə, burada nəqliyyat, ticarət və humanitar əməkdaşlıq mühüm rol oynayır.

Rusiyanın Cənubi Qafqazdakı roluna gəldikdə, bu barədə danışmaq mənim üçün çətindir, çünki bu konsepsiya, əgər Rusiya tərəfindən hələ hazırlanmayıbsa, yəqin ki, işlənib hazırlanmalıdır. Cənubi Qafqaz dəyişib, həm də əsaslı surətdə. Bu halda, bəlkə də demək olar ki, həmin məsələdə təkanverici rol oynayan İkinci Qarabağ müharibəsi olub. Bu müharibə artıq mövcud və ətalətli hesab edilən bir çox layı yerindən tərpədib.

Cənubi Qafqazda Azərbaycanın suverenliyinin tam bərpası, Ermənistanın Avropaya doğru səyləri və bu proseslə bağlı hər şeylə əlaqədar sonrakı inkişaflar - şübhəsiz ki, fikrimcə, bütün bunların bütövlükdə regiondakı analitiklər və hökumət rəsmiləri tərəfindən yenidən düşünülməsini zəruri edir. Əlaqələr olmadan, sanki nəbzi duymadan bunu etmək çox çətin olacaq. Çünki Cənubi Qafqazı qavramaq və anlamaq üçün köhnə metodologiyalar tamamilə köhnəlib. Başqa sözlə, bu, yeni mərkəzləri və bir daha fərqli istiqamətlərdə səyləri olan beş il əvvəlkindən tamamilə fərqli bir regiondur.

Ola bilər ki, onlar indi əvvəlkindən daha aydın görünür, amma bu regionla məşğul olanlar şübhəsiz ki, həmin tendensiyaları görüblər. Buna görə də istənilən xarici oyunçu üçün Cənubi Qafqazla bütövlükdə münasibətlər qurmaq çox çətin bir işdir, çünki bu region konsolidasiya olunmayıb. O, siyasi, iqtisadi və ya nəqliyyat baxımından inteqrasiya olunmayıb. Biz belə bir başlanğıc mərhələdəyik.

Həm də biz Qərb birliyi tərəfindən Ermənistana açıq meyletməni görəndə, həmin mesajları mən avropalı həmkarların da diqqətinə çatdırdım. Bu, bizim üçün suallar doğurdu, çünki biz coğrafiya, iqtisadi potensial və hər şey haqqında məlumatlıyıq və öz dəyərimizi də bilirik. Amma, belə deyək, Ermənistan praktik olaraq regionun əsas nəqliyyat mərkəzi kimi təqdim edildikdə, əlbəttə ki, böyük suallar yarandı, elə deyilmi? Tranzit ölkə kimi heç bir təcrübəsi olmayan bir ölkə, sən demə, birdən-birə əsas haba çevrilir. Sadəcə, oradan nəyin keçdiyi bəlli deyil.

Bu, təhrifdir, başa düşürsünüz? Bu təhrif, təbii ki, siyasi hərəkətlərdən, öz tərəfinə cəlbetmə cəhdlərindən yaranıb. Bu, hər kəsin uzaqlaşmalı və Cənubi Qafqaza geosiyasi mübarizə meydanı kimi baxmamalı olduğu bir cəhətdir.

Hər halda, biz Azərbaycanda buna nail olmuşuq. Biz geosiyasi intriqalara cəlb olunmağa, heç bir xarici oyunçunun bizi öz məqsədləri üçün, istər başqasına, istərsə də bilmirəm, kimə qarşı istifadə etməsinə icazə verməmişik. İndi isə, inanıram ki, qonşularımız da sözdə deyil, əməldə eyni şeyi etməlidirlər. Bu regionda marağı olan, bölgədə sülhün və əməkdaşlığın olmasına maraq göstərən hər kəs Cənubi Qafqazın bütün ölkələri ilə fərdi əməkdaşlıq formatlarını inkişaf etdirməlidir.

Ermənistanla münasibətlərin normallaşması prosesi başa çatdıqda, Azərbaycanla Ermənistan arasında birbaşa nəqliyyat əlaqələri başladıqda, - indiki kimi deyil, birbaşa, Zəngəzur dəhlizi və ya digər dəhlizlər vasitəsilə, - Cənubi Qafqaz siyasi cəhətdən hansısa üçtərəfli format yaratmağa hazır olduqda, onda vəziyyət fərqli olacaq. Düşünürəm ki, o vaxta qədər düzgün seçim edilməsi və sonradan məyusluq olmaması, yenə lazım olanı seçmədik deməyə ehtiyac yaranmaması üçün hər bir ölkənin potensialının, onun iqtisadi, siyasi, hərbi, demoqrafik və digər imkanlarının ayıq şəkildə qiymətləndirilməsi vacibdir. Ən əsası, əməkdaşlıq etmək istəyən hər kəs, ilk növbədə, bu regionun sülh, qarşılıqlı fəaliyyət və geosiyasi rəqabətdən tam azad bir bölgə olması lazım olduğu mövqeyindən çıxış etməlidir. Hər hansı bir regionun ondan azad ola biləcəyi qədər.

davamı növbəti sayımızda

# Regional liderlikdən "orta güc"ə doğru

## Milli maraqların müdafiəsi, regional proseslərə təsir imkanları və məsuliyyət...



Son illər bütün qitələrdə müşahidə olunan geosiyasi dəyişikliklər beynəlxalq münasibətlər sistemində yeni reallıqlar formalaşdırıb. Əgər uzun müddət dövlətlərin nüfuzu əsasən hərbi potensialı ilə ölçülürdüsə, müasir dövrdə bu yanaşma öz aktuallığını qismən itirib. Artıq qlobal təsir imkanları iqtisadi dayanıqlılıq, siyasi müstəqillik, diplomatik çeviklik, texnoloji inkişaf, enerji təhlükəsizliyinə töhfə, humanitar təşəbbüslər və beynəlxalq hüquqa sadiqlik kimi çoxsaylı amillərin vəhdəti ilə müəyyən edilir. Məhz buna görə də "orta güc" anlayışı beynəlxalq münasibətlər nəzəriyyəsində daha çox ön plana çıxır. Orta güc dövlətləri təkcə öz regionlarında deyil, daha geniş coğrafiyada siyasi proseslərə təsir göstərən, müxtəlif tərəflər arasında dialoq yaradan, qlobal problemlərin həllinə töhfə verən və çoxtərəfli əməkdaşlığı təşviq edən aktorlar kimi çıxış edirlər.

Azərbaycan da son illərdə məhz bu istiqamətdə mühüm inkişaf yolu keçib. Müstəqil xarici siyasət kursu, milli maraqlara əsaslanan qərarvermə modeli, enerji və nəqliyyat layihələrinin təşəbbüskarı olması, beynəlxalq təşkilatlarda fəal mövqeyi və müxtəlif dövlətlər arasında etibarlı tərəfdaş kimi tanınması ölkənin geosiyasi çəkisini əhəmiyyətli dərəcədə artırıb. Xüsusilə Avropa ilə Asiyanı, Şimal ilə Cənubu birləşdirən strateji mövqeyi Azərbaycanın beynəlxalq iqtisadi və siyasi sistemdə rolunu gücləndirib. Bununla yanaşı, ölkə yalnız milli maraqlarını qorumaqla kifayətlənmir, həm də regional sabitliyin təmin olunmasına, enerji təhlükəsizliyinə, nəqliyyat əlaqələrinin inkişafına və beynəlxalq əməkdaşlığın genişlənməsinə mühüm töhfələr verir.

Bütün bunlar göstərir ki, Azərbaycan artıq təkcə regional lider kimi deyil, həm də orta güc dövlətinə xas xüsusiyyətləri özündə cəmləşdirən aktor kimi çıxış edir. Bu yüksəliş üç əsas meyar əsasında qiymətləndirilə bilər: ölkənin daxili potensialı və müstəqil siyasəti, regiondankənar proseslərə təsir imkanları, eləcə də bütöv regionun sabitliyi və inkişafı üçün məsuliyyət daşıyan dövlətə çevrilməsi.

Prezident İlham Əliyev IV Şuşa Qlobal Media Forumunun açılışında bildirib ki, Azərbaycanın artıq orta gücə çevrilməsi ilə əlaqədar ekspertlərin müəyyən rəyi ilə tanışdır: "Bununla belə, düşünürəm ki, bu cür toplantı ölkənin orta güc olmasına dair hansı meyarların dəqiq müəyyənləşdirilməsinə kömək edə bilər. Burada müxtəlif meyarlar ola bilər, çünki vahid bir meyar hələ ki, müəyyən edilməyib. Mənim fikrimcə, bu terminologiya ölkənin potensialının, böyük güclərin necə düşündüyü və ya etdiyindən asılı olmayaraq, onun öz milli maraqlarını müdafiə etmək bacarığının, əgər kimsə sizə zərər vurmaq istəyirsə, bütün potensialınızla müqavimət göstərmək qabiliyyətinin etiraf olunmasını nəzərdə tutur".

Dövlət başçısı qeyd edib ki, müdafiə qabiliyyəti, özü də təkcə hərbi paradda deyil, döyüş meydanında göstərilmiş həmin qabiliyyət vacibdir. Əlbəttə, fikrimcə, mühüm meyarlardan biri hüdudlarınızdan kənarda baş verən hadisələrə təkcə bir sözünüzlə və ya bəyanatınızla təsir göstərmək qabiliyyəti də olmalıdır. Azərbaycan bunu dəfələrlə nümayiş etdirib: "Düşünürəm ki, bütün bu dediklərimi Azərbaycana aid etmək olar".

### Müstəqil siyasəti və milli maraqları müdafiə etmək bacarığı

Vurğulandığı kimi, orta güc statusunun əsas göstəricilərindən biri dövlətin daxili potensialı və müstəqil qərar qəbul etmək imkanlarıdır. Azərbaycan son onilliklər ərzində məhz bu istiqamətdə davamlı inkişaf nümayiş etdirərək siyasi, iqtisadi və hərbi baxımdan dayanıqlı dövlət modelini formalaşdırıb. Xarici siyasətdə praqmatik yanaşma ölkəyə müxtəlif güc mərkəzləri ilə qarşılıqlı hörmət və bərabərhüquqlu əməkdaşlıq münasibətləri qurmağa imkan verib. Bakı heç bir siyasi blokun tərkibində olmadan milli maraqlarını əsas götürən müstəqil kurs həyata keçirir və bu, beynəlxalq aləmdə etibarlı tərəfdaş imicini daha da möhkəmləndirir.

Azərbaycanın milli maraqlarını qətiyyətlə müdafiə etmək bacarığı həm diplomatik, həm də praktiki müstəvidə özünü göstərir. Dövlət təhlükəsizlik siyasətini iqtisadi inkişafla uzlaşdıraraq real müdafiə qabiliyyətini gücləndirib, müasir silahlı qüvvələr formalaşdırıb və milli təhlükəsizlik sistemini yeni çağırışlara uyğunlaşdırıb. Bu gün Bakı qlobal dünyada bərabərhüquqlu əməkdaşlığın həm təbliğatçısı, həm də uğurlu nümunəsidir. Enerji, nəqliyyat, yaşıl inkişaf, humanitar əməkdaşlıq və iqtisadi tərəfdaşlıq sahələrində həyata keçirilən layihələr göstərir ki, Azərbaycan öz potensialını yalnız daxili inkişaf üçün deyil, beynəlxalq əməkdaşlığın genişlənməsi naminə də səmərəli şəkildə istifadə edir. Məhz bu xüsusiyyətlər ölkənin regional liderlikdən orta güc statusuna yüksəlməsinin əsas sütunlarından birini təşkil edir.

### Hüdudlarından kənarda baş verən hadisələrə təsir göstərmək qabiliyyəti

Orta güc dövlətlərinin mühüm xüsusiyyətlərindən biri yalnız öz sərhədləri daxilində deyil, daha geniş coğrafiyada baş verən proseslərə təsir göstərmək imkanına malik olmalarıdır. Azərbaycan son illərdə həyata keçirdiyi strateji layihələr və diplomatik təşəbbüslər sayəsində məhz belə dövlətlər sırasında yer almağa başlayıb. Ölkə Avropa, Asiya, Yaxın Şərq və Mərkəzi Asiyanı birləşdirən mühüm geosiyasi məkanda yerləşərək beynəlxalq ticarət və logistika sisteminin ayrılmaz hissəsinə çevrilib.

Bu gün geniş bir coğrafiyanın əsas siyasi-iqtisadi aktorlarından biri olan Azərbaycanın ərazisindən Şərq-Qərb, Şimal-Cənub, Orta Dəhliz və Xəzər üzərindən keçən enerji-kommunikasiya marşrutları daxil olmaqla dörd əsas beynəlxalq nəqliyyat və ticarət istiqaməti keçir. Bu infrastruktur təkcə ölkənin iqtisadi imkanlarını artırmır, həm də müxtəlif regionlar arasında qarşılıqlı asılılığı gücləndirərək qlobal iqtisadi sabitliyə xidmət edir. Azərbaycanın enerji resurslarının Avropa bazarlarına çatdırılması da beynəlxalq enerji təhlükəsizliyinin mühüm elementlərindən biri hesab olunur.

Bununla yanaşı, Bakı beynəlxalq dialoqun təşviqi, çoxtərəfli əməkdaşlığın genişləndirilməsi və müxtəlif dövlətlər arasında etimadın möhkəmləndirilməsi istiqamətində fəal rol oynayır. Humanitar təşəbbüslər, beynəlxalq tədbirlərə ev sahibliyi və qlobal problemlərin müzakirəsində aktiv iştirak Azərbaycanın təsir imkanlarını region hüdudlarından xeyli kənara çıxarıb. Nəticədə ölkə artıq yalnız Cənubi Qafqazın deyil, daha geniş Avrasiya məkanının siyasi və iqtisadi proseslərinə təsir göstərən mühüm orta güc aktoru kimi çıxış edir.



Hazırda Azərbaycan regionun əsas sabitləşdirici faktorlarından biri kimi çıxış edir. Siyasi dialoq, iqtisadi

### Regional məsuliyyət...

Regional liderlikdən orta güc səviyyəsinə yüksələn dövlətlər təkcə öz maraqlarını deyil, bütövlükdə regionun təhlükəsizliyi, sabitliyi və inkişafı üçün məsuliyyət daşıyırlar. Azərbaycan bu gün məhz belə mövqe nümayiş etdirir. Ölkə Cənubi Qafqazda davamlı sülhün təmin olunması, iqtisadi inteqrasiyanın genişləndirilməsi və yeni əməkdaşlıq platformalarının formalaşdırılması istiqamətində ardıcıl təşəbbüslərlə çıxış edir. Bu yanaşma regionun gələcəyinin qarşıdurma deyil, əməkdaşlıq üzərində qurulmasına xidmət edir.

əməkdaşlıq və nəqliyyat əlaqələrinin inkişafı istiqamətində irəli sürülən təşəbbüslər region dövlətlərinin ümumi rifahına xidmət edir. Həm siyasi, həm də iqtisadi gündəmin formalaşdırılmasında aparıcı rol oynayan Azərbaycan regional proseslərin istiqamətini müəyyənləşdirən əsas aktorlardan birinə çevrilib. Bu isə ölkənin artıq yalnız regional lider deyil, daha geniş geosiyasi məsuliyyət daşıyan orta güc dövləti olduğunu nümayiş etdirir.

**P.İSMAYILOV**

# "15 İyul dirənişinin dünya demokratiya tarixində bənzəri yoxdur"



*Rəcəb Tayyib Ərdoğan, Türkiyə Respublikasının Prezidenti*

Türk siyasi tarixinin ən amansız çevriliş cəhdlərindən biri bundan düz 10 il əvvəl - 15 iyul 2016-cı ildə baş verdi. Ölkəmizin qurumlarına gizlicə sızmış bir terror şəbəkəsi tərəfindən törədilən bu çevriliş cəhdinin məqsədi Türkiyəni uzun illər davam edəcək bir xaosa sürükləyərək xalqımızın gələcəyini nəzarət altına almaq idi. İstiqlalına və gələcəyinə sahib çıxaraq qiyamçılara cavab verən əziz xalqımız qəhrəmancasına bir dirəniş nümayiş etdirdi və bu torpaqlarda milli iradənin əsir alına bilməyəcəyini bütün dünyaya bəyan etdi. Türk xalqının 15 İyul gecəsi meydana qoyduğu uzaqgörənlik, cəsarət və fərasətin şübhəsiz ki, dünya demokratiya tarixində bənzəri yoxdur.

Fətullahçı Terror Təşkilatı (FETÖ) tərəfindən törədilən bu xain çevriliş cəhdi adi bir hərbi çevriliş təşəbbüsündən də o yana keçərək, ölkəmizin müstəqilliyini təhdid edən bir işğal cəhdi idi. Qiyamçıların ilk hədəfi milli iradənin və xalqımızın müstəqilliyinin simvol qurumları olan Prezident Aparatı və Türkiyə Böyük Millət Məclisi oldu. 15 İyul gecəsi verdiyim açıqlamada bu günə qədər xalqın gücündən üstün heç bir qüvvə tanımadığımı xüsusi vurğulamışdım. Bu açıqlamanı verərkən türk xalqının öz iradəsinə sahib çıxacağına əmin idim. Beləliklə, elə həmin gecə böyük bir iman və özünəinamla küçələrə axışan xalqımız terror şəbəkəsinin hökmranlığı altına girməyi rədd etdi. Ölkəsinin müstəqilliyi, demokratik nailiyyətləri və azad iradəsini qorumaq məqsədilə canı bahasına dirəniş göstərən xalqımız qiyamçıları yerinə oturdu və nəsildən-nəslə qürurla danışılacaq bir milli iradə dastanına imza atdı.

Xalqımızın cəsarətli mövqeyindən aldığımız ilhamla biz də bu xain çevriliş cəhdinin mənfi təsirlərini sürətlə aradan qaldırmaq üçün hərəkətə keçdik. Dövlətin bütün qurumlarında siyasi olmayan vasitələrlə demokratik fəaliyyətə zərər verə biləcək hər hansı bir yeri təhdid mənbəyi olmaqdan çıxaracaq təcili struktur islahatları həyata keçirdik. Sonra mübarizə apardığımız digər terror təşkilatlarını məhvetmə strategiyası çərçivəsində daxildə və xaricdə apardığımız əməliyyatlarda mühüm uğurlar əldə etdik. Nəhayət, öz birlik və bərabərlik tariximizdə yeni bir səhifə olan "Terrorsuz Türkiyə" prosesinə başladıq. "Türkiyə əsri" yolumuzun əsas mərhələlərindən biri olan bu proses əhatəli və birləşdirici yanaşma, müvafiq təhlükəsizlik qurumlarımızın səyləri və siyasi qurumların dəstəyi ilə şükürlər olsun ki, məqsədinə doğru və əmin addımlarla irəliləyir. İnanıram ki, "Terrorsuz Türkiyə" prosesinin uğuru ölkəmizlə yanaşı, bölgəmizin də sabitliyinə töhfə verəcəkdir.

Ölkəmizin iqtisadi rifahını və inkişafını da hədəf alan bu çevriliş cəhdinə qalxanlara qarşı apardığımız mübarizənin nəticəsində enerji, nəqliyyat, səhiyyə, kənd təsərrüfatı, texnologiya və müdafiə kimi sahələrdə həyata keçirdiyimiz layihələrlə daha firavan bir gələcək üçün güclü addımlar atdıq. Son 10 ildə başladığımız Milli Texnologiya Hərəkatı ilə müdafiə, aviasiya və kosmik sənayedə mühüm bir sıçrayış etdik. Elektrikli və ağıllı nəqliyyat sistemləri inkişaf etdirdik, səhiyyə və kənd təsərrüfatı sahəsində böyük investisiyalarla xalqımızın firavanlığına layiq olmağa çalışdıq. Dünya miqyasında təqdir olunan marka məhsullarımızı da inkişaf etdirdik. Bunlardan elektrikli avtomobilimiz TOGG, milli döyüş təyyarəmiz KAAN, milli korvetlərimiz və pilotsuz uçuş aparatlarımız ilk yada düşənlərdir.

Digər tərəfdən, keçən 10 il ərzində Türkiyə təşəbbüskar xarici siyasət anlayışı ilə həm regional, həm də qlobal səviyyədəki böhran və münaqişələrin həllində təsirli rola malik bir aktor kimi önə çıxmışdır. Bütün böhran bölgələrində güclünün deyil, məzlumun və haqlının yanında olaraq sülh və sabitliyin təminatı üçün məsuliyyət daşımaqdan çəkinmədik. Harada bir zülm və ya ədalətsizlik varsa, orada beynəlxalq hüququn, ədalətin və vicdanın səsi olduq. Bu gün çatdığımız mərhələdə regional və qlobal məsələlərdə Türkiyə - töhfəsi aranan, sözünə etibar edilən və fikirlərinə müraciət olunan bir ölkə kimi tanınırsa, bu uğurun arxasında 15 İyul gecəsi canı bahasına istiqlalına və gələcəyinə sahib çıxan əziz xalqımızın iradəsi dayanır.

Beynəlxalq əməkdaşlığın mühüm şərtlərindən olan terrorla mübarizə xarici siyasət gündəliyimizin yuxarı sıralarında yer almağa davam edir. Məlum olduğu kimi, FETÖ-nün xaricdəki fəaliyyətində təşkilatdaxili parçalanma prosesi son iki ildə sürətləndi. Bununla yanaşı, bir çox dövlətin bu təşkilata gizli şəkildə dəstək və təşkilat üzvlərinə sığınacaq verməsi faktlarını dəqiqliklə müəyyən etdik.

Məqsədlərinə çatmaq üçün hər yolu yoxlayan, fərqli kimliklər altında fəaliyyət göstərən, demokratiya, azadlıq, insan hüququ kimi anlayışları sui-istifadə edən FETÖ-yə qarşı diqqətli və həssas yanaşmanın vacibliyini bir daha vurğulamaq istəyirəm. 15 İyul gecəsi 253 övladı qiyamçılar tərəfindən şəhid edilən bir xalq olaraq beynəlxalq ictimaiyyətdən əsas gözləntimiz Türkiyənin haqlı mübarizəsinə dəstək verilməsidir. Qlobal sülh, təhlükəsizlik və rifah yalnız ayrı-seçkilik qoyulmadan terror təşkilatlarına qarşı qətiyyətli və güzəştsiz mübarizə və səmimi əməkdaşlıq ilə təmin oluna bilər.

# Azərbaycan-ABŞ münasibətlərində yeni səhifə...

## Geosiyasi əməkdaşlıq, qlobal proseslərdə birgə fəaliyyət...



Müasir beynəlxalq münasibətlər sistemində dövlətlərin qarşılıqlı əməkdaşlığı praqmatik yanaşma, qarşılıqlı maraqlar və etibarlı tərəfdaşlıq prinsipləri əsasında formalaşır. Azərbaycan da həyata keçirdiyi praqmatik xarici siyasət, davamlı inkişafı hədəfləyən islahatları və beynəlxalq təşəbbüslərdə fəal iştirakı ilə dünya ictimaiyyətinin diqqətini cəlb edir. Ölkənin etibarlı tərəfdaş kimi qazandığı nüfuz müxtəlif dövlətlərlə ikitərəfli əlaqələrin möhkəmlənməsinə şərait yaradır. Bu kontekstdə Azərbaycan-ABŞ münasibətləri də siyasi dialoq, iqtisadi əməkdaşlıq, enerji təhlükəsizliyi və regional sabitlik kimi istiqamətlər üzrə ardıcıl inkişaf edən tərəfdaşlıqlardan biri kimi qiymətləndirilir.

**Prezidentin Vaşinqtona tarixi səfəri....**

2020-ci il Vətən müharibəsi nəinki bizim regionda, eləcə də mühüm bir coğrafiyada yeni münasibətlər sistemi formalaşdırdı. Azərbaycan müharibədən sonrakı dövrdə də qalib dövlət olmasına baxmayaraq, özünün sülhpərvər siyasi ənənəsinə sadiq qaldı - Bakı regionda sabitliyin və davamlı təhlükəsizliyin bərpası üçün qətiyyətli iradə nümayiş etdirdi. Tarix göstərdi ki, Azərbaycan üçün qələbə revanşizm demək deyil - qələbə yeni bir siyasi reallıq, yeni münasibətlər sistemi və yeni inkişaf mühiti formalaşdırmaq imkanıdır. Beləliklə, Azərbaycanın müəllifi olduğu sülh gündəliyi regionun taleyini dəyişən əsas siyasi xəttə çevrildi. Cənubi Qafqazda formalaşan yeni sülh şəraiti 8 avqust 2025-ci ildə Vaşinqtonda keçirilən yüksək səviyyəli görüşdə özünün siyasi və diplomatik təsdiqini tapdı. ABŞ Prezidenti Donald Trampın iştirakı ilə baş tutan bu görüş regionun gələcəyi baxımından mühüm dönüş nöqtəsi kimi qiymətləndirilir. Görüş zamanı Azərbaycan və Ermənistan arasında sülh sazişinin paraflanması, eləcə də ATƏT-in Minsk qrupunun ləğvi ilə bağlı qarşılıqlı razılaşmanın imzalanması artıq köhnəlmiş və nəticəsiz mexanizmlərin tarixə qovuşduğunu göstərdi. Bu addım iki ölkə arasında münasibətlərin normallaşması ilə yanaşı, bütövlükdə Cənubi Qafqazda yeni təhlükəsizlik arxitekturasının formalaşması baxımından da mühüm əhəmiyyət daşıyır. Bu, Cənubi Qafqazda formalaşan sülh prosesinin lokal deyil, qlobal miqyasda tanınmasının göstəricisidir. Region artıq münaqişə zonası kimi deyil, sabitlik və əməkdaşlıq məkanı kimi qəbul olunmağa başlayır. IV Şuşa Qlobal Media Forumunun açılışında Prezident İlham Əliyev bildirib ki, Prezident Tramp sülhsevər, dünyanın müxtəlif bölgələrində sülhün bərqərar olunmasına çalışan bir liderdir. Özünün də qeyd etdiyi kimi, o, səkkiz münaqişənin həllinə töhfə verib. Bu, onun xarakterini, baxışlarını və siyasətini əks etdirir: "Bizim məsələdə Prezident Tramp rolu Azərbaycan ilə Ermənistan arasında sülh sazişi üzrə danışıqların yekun mərhələsində xüsusilə mühüm oldu. Prezident Tramp və onun komandası bu prosesə qoşularaq elə bir çərçivə formalaşdırdılar ki, nəticədə sülh mümkün oldu. Onlar sülhlə bağlı narahatlığımızı tam şəkildə anlayırdılar. Onlar Azərbaycanın əsas hissəsini Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək Zəngəzur dəhlizinin zəruriliyini aydın şəkildə dərk edirdilər və Ermənistanın da bu sülhün vacibliyinə inandırmaq istiqamətində olduqca səmərəli fəaliyyət göstərdilər. Nəticədə, Ağ Evdə Ermənistanın Baş naziri, Prezident Tramp və mənim iştirakımla keçirilən tarixi görüş zamanı birgə Bəyannamə imzalandı. Həmçinin Prezident Trampın iştirakı ilə hər iki ölkənin xarici işlər nazirləri sülh sazişini parafladılar".

**Strateji Tərəfdaşlıq haqqında Xartiya münasibətlərin inkişafında yeni mərhələdir**

Vurğulandığı kimi, ABŞ-Azərbaycan ikitərəfli münasibətləri yeni bir status qazanıb. Qeyd edək ki, bu il fevralın 10-da ABŞ-ın vitse-prezidenti Cey. Di. Vensin Bakıya səfəri çərçivəsində Azərbaycan ilə ABŞ arasında Strateji Tərəfdaşlıq haqqında Xartiya imzalandı. Bu sənədin imzalanması iki ölkə arasındakı münasibətlərin keyfiyyətcə ən yeni mərhələsinin başlanğıcı kimi qiymətləndirilir. Xartiya özündə bir sıra mühüm məqamları ehtiva edir - diplomatik əlaqələrin genişlənməsi, strateji iqtisadi münasibətlər sisteminin formalaşdırılması, müasir çağırışlara əsasən dialoqun daha da gücləndirilməsi ilə yanaşı, sənəd həm də Azərbaycanın Cənubi Qafqazda formalaşdırdığı yeni siyasi reallıqların beynəlxalq müstəvidə qəbulunun göstəricisi sayıla bilər. Qarabağ müharibəsində əldə olunan zəfərdən sonra regionda yaranmış geosiyasi vəziyyət Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün tam bərpası ilə xarakterizə olunur. Xartiyanın preambulasında əksini tapan müddəalar Vaşinqtonun bu reallığı nəzərə aldığını və Bakı ilə münasibətləri yeni status və yeni əməkdaşlıq müstəvilərində inkişaf etdirmək niyyətində olduğunu göstərir. Dövlət başçımız IV Şuşa Qlobal Media Forumunun açılışında bildirib ki, ötən ilin avqust ayında Vaşinqtonda Prezident Trampla tarixi görüşüm və sonradan bu ilin yanvarında Davosdakı görüşümüz, Prezident Trampın təşəbbüskarı olduğu Sülh Şurasına Azərbaycanın təsisçi üzv kimi dəvət olunması, Vitse-prezident Cey. Di. Vensin səfəri, Strateji Tərəfdaşlığın qurulması haqqında Birgə Bəyanatı Vitse-prezidentlə Bakıda imzalamağımız və bir çox digər meyarlar göstərir ki, hazırda münasibətlər heç zaman görmədiyimiz zirvə səviyyəsindədir. Bu gün biz strateji tərəfdaşlıq haqqında Bəyanatın bütün müddəalarının icrası üzərində fəal şəkildə işləyirik.

**907-ci düzəliş tam köhnəlib...**

Bu ilin avqustunda Prezident İlham Əliyevin Vaşinqtona səfəri zamanı Azərbaycan-ABŞ münasibətlərinin inkişafı istiqamətində atılan mühüm addımlardan biri də ABŞ Prezidentinin Azadlığa Dəstək Aktına 907-ci düzəlişin tətbiqinin dayandırılması barədə sərəncam imzalanması oldu. Azərbaycan-ABŞ münasibətlərində keçmişin mənfi mirası olan 907-ci düzəlişin tətbiqinin Tramp tərəfindən məhz Prezident İlham Əliyevlə görüş çərçivəsində dayandırılması əhəmiyyətli rəmzi məna daşıdı, ABŞ-ın Azərbaycanla əlaqələrin inkişafına verdiyi önəmin təcəssümünə çevrildi. Beləliklə, 907-ci düzəlişin dayandırılması uzun illər Vaşinqtonun siyasi arsenalında qalan iradə baryerinin aradan qaldırılması deməkdir. ABŞ-ın bu addımı onu göstərir ki, Vaşinqton Azərbaycanla əməkdaşlıqda siyasi təzyiq alətlərini deyil, qarşılıqlı maraq və reallığa əsaslanan yanaşmanı seçib. Xatırladaq ki, bu əsassız düzəliş ilk dəfə 1992-ci ildə senator Con Makkeyn tərəfindən təklif edilmişdi. Keçmiş prezident Co Bayden isə bu düzəlişin həyata keçməsində mühüm rol oynayıb. Prezident İlham Əliyev Şuşa Media Forumunda bildirib ki, həmin düzəliş tamamilə köhnəlib və tam ləğv edilməlidir. Prezident Trampın qəti mövqeyinə baxmayaraq, əfsuslar ki, vəziyyət olduğu kimi qalır: "Yeri gəlmişkən, ötən ilin avqustunda Vaşinqtona səfərim zamanı Ağ Evdə Prezident Tramp mənim iştirakımla həmin düzəlişin qüvvəsinin növbəti bir il üçün dayandırılması ilə bağlı sənədi imzaladı və o, hazırda işləmir, lakin onun rəmzi mənası, siyasi mənası hələ də qalır. Düşünürəm ki, həmin düzəliş Konqres tərəfindən nə qədər tez tam ləğv edilərsə, hamımız üçün, Azərbaycan üçün



bir o qədər yaxşı olar".

Dövlət başçısı vurğulayıb ki, Azərbaycan birtərəfli olaraq Ermənistana bütün tranzit məhdudiyyətlərini aradan qaldırdı və hazırda biz bunu etməklə 40 min tondan artıq müxtəlif yüklər Rusiya, Qazaxıstan və digər yerlərdən Ermənistana daşındı. Bundan əlavə, Azərbaycan özü Ermənistana neft məhsullarının təchiz etməyə başlayıb və bildiyimə görə artıq 10 min tondan çoxdur. Bu, xüsusən də indi - bir çox ölkələrin yanacağa çıxışdan əziyyət çəkdiyi dövrdə baş verir və Ermənistan Azərbaycanı etibarlı mənbə kimi görür. Əgər belə olmasaydı, ola bilsin, bu gün onlar bütün dünyada benzin və dizel yanacağı axtarmalı olacaqdılar.

***P.İSMAYILOV***

# Avrasiyanın mühüm nəqliyyat qovşağı

Hazırda dünyada müşahidə edilən kataklizmlər, xüsusilə də Şərqi Avropada, Yaxın Şərqdə, Hörmüz boğazı ətrafında, daha əvvəl Qırmızı dənizdə baş verənlər regionda və qlobal miqyasda ölkələri, daşıma şirkətlərini alternativ nəqliyyat-logistika marşrutları axtarmaq məcburiyyətində qoyub. Daha təhlükəsiz və iqtisadi baxımdan səmərəli marşrutların önəmi heç vaxt olmadığı qədər artıb.

Belə bir şəraitdə nəzərlər Azərbaycana yönəlir ki, bu da bir sıra fundamental amillərlə bağlıdır. Prezident İlham Əliyev IV Şuşa Qlobal Media Forumunun açılışında ölkəmizin tranzit daşımaları sahəsində üstünlüklərinə və bunu şərtləndirən bir sıra məqamlara diqqət çəkib. "Biz kifayət qədər uzun müddət ərzində bağlantılar üzərində işləmişik. Biz bəlkə də 10 ildən artıqdır çalışdıq, coğrafi mövqeyimizin üstünlüklərindən istifadə edərək, onları çoxtərəfli əməkdaşlıq üçün real platformaya çevirək", - deyə dövlətimizin başçısı forumda Ona ünvanlanan sualları cavablandırarkən bildirib.

**Fiziki infrastrukturun yaradılması**

Şuşa Qlobal Media Forumunun açılışında Prezident İlham Əliyev tranzit daşımaları üçün zəruri olan iki mühüm şərtə xüsusi diqqət çəkib. Bunlardan biri qonşularla yaxşı münasibətlərin qurulmasıdır. Dövlətimizin başçısı bildirib ki, əgər qonşularınızla münasibətləriniz pisdirsə, bu o deməkdir ki, heç nə alınmayacaq. Azərbaycanın çoxvektorlu xarici siyasət kursunda qonşularla yaxşı münasibətlərin qurulması xətti xüsusi yer tutur. Qısa müstəqillik tarixində Ermənistan istisna olmaqla bütün qonşu dövlətlərlə yüksəksəviyyəli əlaqələrin qurulması respublikamızın böyük üstünlüyüdür. İndiyədək Azərbaycanın moderatorluğu və qonşu dövlətlərin iştirakı ilə bir sıra nəqliyyat və enerji layihələri uğurla reallaşdırılıb və hazırda həmin layihələrdən bütün Avrasiya məkanı faydalanır.

Daşımalar üçün digər zəruri şərt infrastrukturla bağlıdır. Prezident İlham Əliyev son 22 ildə ölkəmizin əlverişli coğrafi mövqeyini nəzərə almaqla strateji baxış nümayiş etdirərək qeyd olunan sahənin inkişafına həssas yanaşma sərgiləyib. Onun qətiyyətli siyasi iradəsi ilə ölkə boyunca böyük həcmlərdə investisiya qoyuluşu hesabına çoxsaylı nəqliyyat-logistika layihələri uğurla icra olunub və respublika ərazisindən keçən bütün marşrutlar üzrə tranzit daşımalarının optimal vaxt rejimində səmərəli şəkildə həyata keçirilməsinə geniş imkanlar yaradılıb. Tam qətiyyətlə deyə bilərik ki, hazırda Azərbaycan Avrasiyanın əvəzolunmaz nəqliyyat-logistika mərkəzinə çevrilib ki, bu da respublikamızın regional və qlobal miqyasda önəmini artıran çox mühüm amillərdən biri qismində çıxış edir.

Ötən dövrdə Azərbaycan müasir nəqliyyat infrastrukturunun yaradılmasına kompleks yanaşma sərgiləyib. Belə ki, nəqliyyat-logistika sahəsində reallaşdırılan layihələr müxtəlif istiqamətləri - avtomobil yollarını, dəmiryolunu, su və hava nəqliyyatını əhatə edib. Ölkədə məqsədyönlü şəkildə həyata keçirdiyi




müasir nəqliyyat infrastrukturu quruculuğu siyasətinin konkret nəticələrini avtomobil yollarının yenilənməsinin timsalında aydın şəkildə görmək mümkündür. Respublikamızda hər il təxminən min kilometr uzunluğunda avtomobil yolları tikilir və yaxud əsaslı şəkildə yenidən qurulur.

**Dəniz nəqliyyatının inkişafı**

Respublikamızda dəniz nəqliyyatının inkişafı xüsusi diqqət mərkəzində saxlanılıb. Bu gün Azərbaycan Xəzərdə ən böyük daşıma donanmasına malikdir. Burada əlamətdar məqamlardan biri də ondan ibarətdir ki, Azərbaycan nəqliyyat imkanlarını ölkə hüdudlarından kənara çıxarmağı bacarıb. Qara dənizdə daşımalar həyata keçirmək üçün üç böyük tanker alınıb. Onların hər biri 115 min ton yükgötürmə qabiliyyətinə malikdir. Ölkəmizdə gəmiqayırma zavodunun yaradılması da böyük uğurdur. Bəhs olunan müəssisənin açılış mərasimi dövlətimizin başçısının iştirakı ilə 20 sentyabr 2013-cü ildə baş tutub. İstehsalat Xəzər dənizində ən müasir tələblərə cavab verən istənilən növ müxtəlif təyinatlı gəmilərin tikintisi, təmiri və ümumilikdə, dəniz mühəndisliyi işlərinin yerinə yetirilməsi istiqamətində fəaliyyət göstərir. Şuşa Qlobal Media Forumunda bildirildiyi kimi, hazırda müəssisədə respublikamızın istifadəsi üçün daha 10 gəmi inşa olunur.

Reallaşdırılan çoxsaylı layihələr sayəsində respublikamızda dəmir yolu şəbəkəsinin texniki imkanları və keyfiyyət göstəriciləri əhəmiyyətli dərəcədə yaxşılaşıb, texnika parkı modernləşib. Müvafiq Dövlət Proqramının icrası çərçivəsində çoxsaylı layihələr reallaşdırılıb. Bu çərçivədə Bakı-Böyük Kəsik istiqamətində 355 km yol əsaslı təmir olunub və 800 metrlik uzunölçülü relslərlə (pletlərlə) əvəzlənib. Bundan başqa, işğaldan azad olunmuş ərazilərdə quruculuq işləri çərçivəsində ən zəruri infrastrukturun yaradılması ilə bağlı Prezident İlham Əliyevin müvafiq tapşırıqlarına əsasən dəmir yollarının tikintisi işləri də qrafik üzrə davam etdirilir.

Həmçinin respublikamızda 10-dək aeroportun inşası təmin edilib. Hazırda ölkənin regionlarında da beynəlxalq səviyyəli hava limanları fəaliyyət göstərir. Füzulidə, Zəngilanda və Laçında olmaqla daha 3 beynəlxalq səviyyəli hava limanı isə işğaldan azad olunmuş ərazilərdə yaradılıb. Hazırda ölkəmizdə nəqliyyat-logistika infrastrukturunun yüksək səviyyədə olmasından məmnunluğunu bildirən Prezident İlham Əliyev vurğulayıb: "...Fiziki infrastruktur qurulub. İndi isə biz yalnız onun genişləndirilməsi yolları üzərində çalışırıq, çünki biz görələmirdik ki, coğrafiyamız son vaxtlar bu qədər lazımlı olacaq. Şərq və Qərbdəki qonşularla - istər Mərkəzi Asiya ölkələri, istərsə də Gürcüstan, Türkiyə və Avropa kimi yaxın qonşularımızla qarşılıqlı fəaliyyət çox yaxşıdır".



**İmkanlar artırılır**

Genişlənmə layihələri həm Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu xəttini, həm də Ələtdəki beynəlxalq dəniz limanını əhatə edir. Azərbaycanın nəqliyyat-logistika imkanlarını artıraraq Avrasiyanın mühüm nəqliyyat hablarından birinə çevrilməsindən bəhs edərkən ölkəmizin liderliyi ilə inşa olunan Bakı-Tbilisi-Qars dəmir yolunun və Xəzərdə ən böyük Bakı Beynəlxalq Dəniz Ticarət Limanının önəmini ayrıca qeyd edə bilərik. Şərq-Qərb marşrutunun və Orta Dəhlizin funksionallığının artmasında mühüm rol oynayan Bakı-Tbilisi-Qars dəmir yolu xətti məhz Azərbaycanın moderatorluğu ilə inşa olunaraq 2017-ci ildə istifadəyə verilib. Bakı-Tbilisi-Qars dəmir yolu Avropa ilə Asiyanın dəmir yolları şəbəkələrinin birləşdirilməsini təmin edib. Layihəyə əsasən, polad magistralla növbəti illərdə 17 milyon ton və daha çox yük daşınması nəzərdə tutulur. Artan yük həcmləri nəzərə alınmaqla yenə də ölkəmizin təşəbbüsü ilə BTQ-nin ötürücülük imkanlarının genişləndirilməsi üzrə layihə artıq yekunlaşıb.

Beynəlxalq dəhlizlərin potensialı dəmir yolları ilə yanaşı, limanların yükaşırma qabiliyyəti ilə də sıx bağlıdır. Bu baxımdan, Xəzər dənizində ən böyük ticarət limanlarından biri olan Bakı Beynəlxalq Dəniz Ticarət Limanının yükaşırma qabiliyyətinin artırılması istiqamətində fəal iş aparılır. Genişləndirmə layihəsi çərçivəsində limanın avtomatlaşdırılması nəticəsində buradan keçən tranzit yüklərin daha sürətli ötürülməsinə imkan yaranacaq. "Hazırda biz öz imkanlarımızı artırırıq. Dəniz ticarət limanımıza gəldikdə, hazırda o, 15 milyon ton imkanı ilə Xəzərdə ən iri limandır və onun həcmi 25 milyon tonu təmin etmək üçün artırılacaq", - deyə dövlətimizin başçısı vurğulayıb.

***Mübariz ABDULLAYEV***

# İRƏVANIN AZƏRBAYCANLI MAARİFÇİ XANIMLARI

Təəssüf ki, İrəvanda Azərbaycan qadın hərəkatının tarixinin öyrənilməsi, qadınların ictimai, mədəni həyatda rolu, onların təhsili ilə bağlı demək olar ki, xüsusi tədqiqatlar aparılmamışdır. İlk dəfə olaraq İrəvanda azərbaycanlı qadın hərəkatının tarixi kompleks və sistemli şəkildə bizim tərəfimizdən nəzərdən keçirilmişdir. Bu məqalədə İrəvanda Azərbaycan qadın hərəkatının aparıcı fiqurlarından olan azərbaycanlı maarifçi xanımlarından bəhs etməyə çalışmışıq.

XIX əsrin əvvəllərindən etibarən Azərbaycanda qadın təhsili geniş vüsət almağa başladı. Həmin dövrdə azərbaycanlı qızlar üçün xüsusi məktəblər olmadığından onlar bir qayda olaraq şəxsi evlərdə fəaliyyət göstərən ayrı-ayrı şəxslərdən dərs alırdılar. Bu tip məktəblər Cənubi Qafqazın müxtəlif coğrafiyalarında, o cümlədən İrəvanda, Uluxanlıda da var idi.

İrəvan qəzasında maarifçilik mühiti tarixində xüsusilə əhəmiyyətli hadisələrdən biri 1862-ci ildə Uluxanlıda açılmış müsəlman qız məktəbinin fəaliyyətə başlaması olmuşdur. İlk ildə burada 5 azərbaycanlı qız oxumuşdu. Həmin məktəbdə təhsilin məzmunu dünyəvi səciyyə daşınmışdır. Bu məktəb bölgədə müsəlman qızlarının dünyəvi təhsilə cəlb edilməsində mühüm rol oynamış, eyni zamanda qadınların mədəni səviyyəsinin yüksəldilməsi, onların sosial fəallığının artırılması istiqamətində mühüm işlər görmüşdür. Bundan 40 il sonra - 1902-ci ildə İrəvanda rus-tatar (türk) qızlar məktəbi açılmışdır. Məktəbin açılmasında Məmmədqulu bəy Kərim Soltan və Mirzə Məmmədvəli Qəmərlinski kimi maarif mücahidlərinin böyük əməyi olmuşdur. Həmin dövrdə İrəvanda və bir sıra bölgələrdə rus-tatar oğlan məktəbləri, ibtidai məktəblər, üsuli-cədid əsasında qurulan müsəlman məktəbləri fəaliyyət göstərirdi. Bu çoxnövlü təhsil şəbəkəsi həm dünyəvi-elmi, həm dini-əxlaqi, həm də milli-mədəni tərbiyə istiqamətlərini öz daxilində birləşdirir, İrəvan azərbaycanlı əhalisinin müxtəlif sosial təbəqələrinin təhsil ehtiyaclarını ödəməyə xidmət edirdi. Zəngin pedaqoji ənənələr üzərində təşəkkül tapan İrəvan maarifçilik mühiti sonradan Mirzə Ələkbər Elxanov, Mirzə Məmmədvəli Qəmərlinski, Həsən bəy Qazıyev, İbadulla bəy Muğanlinski, Cəfər bəy Cəfərbəyov, Mirzə Cabbar Məhəmmədzadə, Məmməd bəy Qazıyev və bu kimi onlarla maarifçi pedaqoqların formalaşmasına və yetişməsinə əlverişli zəmin yaratmışdır.

İrəvanda azərbaycanlı qadın maarifçilərin fəaliyyəti Azərbaycan təhsil tarixinin az tədqiq olunmuş, lakin ehtiyac duyulduğu qədər mühüm olan səhifələrindən biridir. XIX əsrin sonu - XX əsrin əvvəllərindən başlayaraq və sovet dövrünün ilk onilliklərində bu bölgədə formalaşmış qadın maarifçilər həm milli pedaqoji ənənənin, həm də Azərbaycan qadın hərəkatının inkişafında özünəməxsus rol oynamışdır. Bu pedaqoqların, Tərlan xanım Sultanova, Bülbül Kazımova, Tacirə Bağırova, Rəziyə Abdullayeva, Sona Bağırova, Fatma Qədimova, Xədicə Kəngərlinski, Tərlan Kərimova, Nabat İbrahimova, Fatma Əfəndiyeva, Lala Qazıyeva, Sona Qocayeva, Kübra Məmmədova və bir çoxlarının bölgədə qadınların təhsilə cəlb edilməsində, qadınlar arasında maarifləndirilmə işlərinin aparılmasında, bir sözlə, İrəvan maarifçilik mühitində qadınların sosiallaşmasında böyük xidmətləri olmuşdur.

Qərbi Azərbaycanın ilk azərbaycanlı qadın pedaqoqu Tərlan xanım Məmmədəli qızı Sultanova da XIX əsrin sonu, XX əsrin əvvəllərində İrəvanda Azərbaycan maarifçilik mühitinin ən görkəmli simalarından biridir. İrəvanda Azərbaycan qadın təhsilinin ilk aparıcı fiqurlarından olan Tərlan xanım 1890-cı ildə İrəvan quberniyasının Üçmüədzin qəzasının Əkərək kəndində anadan olmuşdur. O 1913-cü ildə İrəvan şəhərində azərbaycanlı qızlar üçün açılmış 2 nömrəli rus-tatar (türk) məktəbində bir müddət müəllim vəzifəsində çalışdıqdan sonra, həmin məktəbin müdiri vəzifəsinə təyin olunmuşdur. Tərlan xanımın doğulduğu Əkərək kəndindən İrəvan şəhərindəki gimnaziyaya keçidi həmin dövrdə kifayət qədər nadir bir hadisə idi və bu, ailəsinin maarifə açıq mövqeyini, eyni zamanda, onun fərdi istedad və əz-



minin erkən təzahürlərini əks etdirən sübutlardan biridir. Lakin onun fəaliyyəti yalnızca İrəvanla məhdudlaşmamış, sonralar Bakı şəhərinə köçən Tərlan xanım burada 132 nömrəli məktəbdə müəllim və direktor müavini vəzifələrində çalışmışdır. Səmərəli pedaqoji fəaliyyətinə görə "Əməkdar müəllim" fəxri adına və "Qırmızı Əmək Bayrağı" ordeninə layiq görülmüşdür.

İrəvanın digər xanım maarifçilərindən biri də Bülbül Hacı Məmməd Tağı qızı Kazımova 1887-ci ildə İrəvan şəhərində anadan olmuşdur. O, 1914-cü ildə İrəvan rus-tatar (türk) qız məktəbini bitirmiş, 1917-ci ilin sonlarından İrəvanda müəllimlik fəaliyyətinə başlamışdır. Ömrünün 50 ildən artıq bir hissəsini İrəvanda Azərbaycan ictimai-mədəni həyatının formalaşması və inkişafına həsr etmişdir.

Bülbül xanım Kazımova təkcə müəllim deyil, eyni zamanda, qurucu kimi də fəaliyyət göstərmişdir. Yaşadığı mühitdə məktəblərin, qadın klublarının və mədəniyyət evlərinin əsasını qoyması onun qadın təhsilinə yalnız tədris çərçivəsində deyil, geniş ictimai-mədəni miqyasda yanaşdığını göstərir. İrəvanın azərbaycanlı maarifçi qadınları arasında Tacirə Cəfər qızı Bağırovanın (Bağırbəyova) da adını ehtiramla qeyd etmək lazımdır. O 1913-cü ildə İrəvan şəhərində anadan olmuşdur. O, İrəvan Pedaqoji Texnikumunu, sonra isə Azərbaycan Ali Pedaqoji İnstitutunu bitirmişdir. Bağırova öz dövrünün nadir hadisələrindən biri kimi, qadın pedaqoq olaraq pedaqoji ali məktəbdə pedaqogika və pedaqogiya fənlərini tədris edən mütəxəssis olaraq fəaliyyət göstərmişdir. Tacirə Bağırova "Əzizbəyov" adına azərbaycanlı məktəbində və İrəvan Pedaqoji Məktəbində uzun illər dərs demiş, 1948-ci ildə Azərbaycana deportasiya edildikdən sonra 1950-ci illərdə Azərbaycan Pedaqoji Universitetində, 1954-cü ildə isə Xarici Dillər İnstitutunda müəllim işləmişdir. "Əməkdar müəllim" adına layiq görülən T.Bağırova 1982-ci ildə Bakıda vəfat etmişdir. 1934-cü illərdə pedaqoji texnikumda azərbaycanlı qadın müəllimlərdən Tacirə Bağırova, Zəhra Abbasova, Rəziyə İsmayılova, Şura Fəhradova, Surə Fərhadova kimi işıqlı simalar dərs demişdilər. Akademik Budaq Budaqovun bu dövr haqqında xatirələri həm də bu xanım maarifçilərin pedaqoji ustalığını əhatə edir: "İrəvan Pedaqoji Məktəbi, oraya toplanmış müəllimlərin pedaqoji ustalığı, ensiklopedik biliyi və hazırlanan kadrların savadının pedaqoji məktəb səviyyəsindən universitet tələbələri səviyyəsindək qaldırılması bu məktəbə haqlı şərəf, şöhrət, nüfuz gətirmişdi".

İrəvan Azərbaycanlı Pedaqoji Texnikumunda dərs deyən qadınlardan biri də dövrün sayılıb-seçilən qadınlarından olan Tərlan Abbas qızı Kərimova olmuşdur. Tərlan xanım Kərimova 1913-cü ildə İrəvan şəhərində əsil-nəcabətli bir ailədə anadan olmuşdur. O Bakı Darülmüəllimində təhsil almışdır. Burada ona dərs demiş Camo Cəbrayılbəyli, Abdulla Şaiq, Hüseyn Cavid kimi şəxsiyyətlərin, görkəmli ədəbiyyat və maarif xadimlərinin gözəl ənənələrini İrəvan Azərbaycanlı Pedaqoji Məktəbinin nəzdində fəaliyyət göstərən ibtidai məktəbdə davam etdirmişdi. Bir neçə nəsil Qərbi Azərbaycanda yaşayan soydaşlarımıza qələm tutmağı Tərlan xanım öyrətmişdi. Tərlan xanım yüksək mədəniyyəti, tələbkarlığı ilə İrəvanda hamının hörmətini qazanmış pedaqoqlardan idi. O 1948-ci ildə ailəsi ilə birlikdə Azərbaycanın Xanlar rayonuna deportasiya edilir. Tərlan xanım burada erməni millətindən olan bir həkimin "müalicəsi" nəticəsində 1962-ci ildə dünyasını dəyişir.

İrəvanın tanınmış maarifçilərindən biri də Rəziyə Hacı Həsən qızı Abdullayeva olmuşdur. O 1913-cü il sentyabr ayının 29-da İrəvanda anadan olub. 1931-ci ildə İrəvan Azərbaycanlı Pedaqoji Texnikumunu bitirmiş, eyni il İrəvanda pedaqoji fəaliyyətə başlamışdır. 1941-ci ildə İrəvan Pedaqoji İnstitutunun Azərbaycan şöbəsinin dil-ədəbiyyat fakültəsinə daxil olmuş, həmin il İrəvanda M.F.Axundov adına İrəvan Azərbaycanlı Qızlar Məktəbinin direktoru təyin edilmişdir. 1940-cı ildə "Əməkdar müəllim" adına layiq görülən Rəziyə xanım 1953-cü ildə SSRİ Ali Sovetinin deputatı olmuşdur. Rəziyə Abdullayevanın bioqrafiyası İrəvan qadın maarifçi nəslinin sovet dövrü kontekstində öz inkişaf zirvəsinə çatmasının nümunəsidir. Onun SSRİ Ali Sovetinə deputat seçilməsi yalnız fərdi nailiyyət deyil, dövlət səviyyəsində qadın pedaqoqun mühüm sosial-siyasi rolun tanınmasının ifadəsidir.

İrəvanın digər bir diqqətə layiq qadın maarifçisi Sona Bağırovadır. O, İrəvan Pedaqoji Texnikumunun 1931-ci il 3-cü buraxılışının yeganə qadın məzunu olmuşdur. İrəvan Azərbaycanlı Pedaqoji Texnikumunun 1931-ci il buraxılışında məzunlar arasında yalnız bir nəfər gənc qız olmuşdur ki, bu da Sona Bağırova idi. Yeri gəlmişkən onu da qeyd edim ki, Sona Bağırova EPYC-nin azərbaycanlı bölməsinin gənc üzvü kimi İrəvanda Azərbaycan ədəbi-mədəni mühitinin inkişafında müəyyən rol oynamışdır. O, hələ pedaqoji texnikumda təhsil aldığı illərdə "Qızıl şəfəq" qəzeti səhifələrində bədii nümunələr çap etdirir, inqilabdan sonra İrəvanda yaranan Azərbaycan poeziyasının gənc aparıcı nümayəndələrindən biri kimi fəal iştirak edirdi. O, sonrakı qadın nəsilləri üçün cığır açan pedaqoq olmuşdur.

Texnikumun fəaliyyətə başladığı ilk illərdə burada təhsil alan qızların sayı çox az idi. Buna baxmayaraq, sonralar burada təhsil alan qızların sayı artmışdır.

İrəvanda azərbaycanlı qadın maarifçilərinin fəaliyyəti yalnız təhsil vermək ilə məhdudlaşmırdı. Onlar eyni zamanda müxtəlif təşkilatların qurucuları, inzibati rəhbərlər, siyasi-dövlət xadimləri, mətbuat fəalları, mədəni-maarif təşkilatçıları idilər. Bu çoxşaxəlilik onların pedaqoji-mədəni miqyasının nə qədər geniş olduğunu göstərir. 1948-ci il deportasiyası bu nəslin başqa bir tarixi sınağı olmuşdur. Bülbül Kazımova, Tacirə Bağırova, Rəziyə İsmayılova, Şura Fəhradova və onlarla azərbaycanlı pedaqoq öz yurdlarından didərgin salınmış, onların bəziləri pedaqoji fəaliyyətlərini Bakıda davam etdirməyə məcbur olmuşdular.

İrəvan maarif mühitindəki azərbaycanlı qadın maarifçilər Azərbaycan təhsil tarixində özünəməxsus və qiymətli iz qoymuşlar. Tərlan xanım Sultanovadan başlayaraq Bülbül Kazımova, Tacirə Bağırova, Rəziyə Abdullayeva və başqa qadın pedaqoqların timsalında bu nəsil Azərbaycan qadın hərəkatının regional inkişaf modelini ortaya qoymuşdur.

Bir sözlə, İrəvanda azərbaycanlı maarifçi qadınlar XX əsrdə böyük inkişaf yolu keçmiş, regionda maarifin, mədəniyyətin, incəsənətin çiçəklənməsinə böyük töhfələr vermişlər. Onlar İrəvanın ictimai, ədəbi-mədəni tarixində silinməz izlər qoymuşlar.



*Cəlal Zəngi,*
*filologiya üzrə fəlsəfə doktoru, dosent*

# Altı ölümün öldürdüyü tək adam

## Edqar Allan Ponun yaradıcılığı haqqında

əvvəli ötən sayımızda

Bu arada polis şübhəli sandığı bir nəfəri həbs eləyir, ancaq Düpen bu tələsik qərardan narazı qalır. Prefektlə söhbətində o, polisi məsələyə sistemsiz yanaşmaqda, cinayətin mənzərəsini bütöv şəkildə görə bilməməkdə qınayır. Burada yalnız ağır cinayətə səbəb olmuş xaosu ağlın gücüylə nizama salmaq, ayağısürüşkən induksiya kənizlərini sərt deduktiv hökmdara nikahlamaq, qanunsuzluğa təkan vermiş irrasional təmayülü rasional təfəkkürün yeminə çevirib hadisənin qanunauyğunluğunu tapmaq, kəsəsi, iblisin şifrələrini çözmək işə yaraya bilər.

Sonda nazlı həqiqət ələhəzrət məntiqin toruna düşür: bəlli olur ki, faciəni bir matrosun satmaq üçün gəmiylə gətirdiyi oranqutan meymunu törədib. Qətlin detallarına varmaq yəqin uzun çəkər, amma bir məsələni hökmən vurğulamalıyam: zənnimcə, meymun bu hekayədə irrasional gücün, müəllifə də ömrü boyu əzab vermiş, faktiki onu qovub yorub yaxalayıb qətlə yetirmiş rəhmsiz, şüursuz təbiətin, heyvandan seçilməyən ruhsuz bədənin simvoludur. Edqar Po illər uzunu vücudunda daşıdığı, taleyinə yamanmış, can evinə qəlin bir kölgə salmış o qaranlıq aləmlə savaş vəziyyətində yaşayıb, nəhs taledən qurtulmaq üçün qələmini süngüyə, bədənini səngərə çevirib. Sonralar Freyd deyəcəkdi ki, nevrozlu xəstə xəstəliyinin səbəbini dərk eləyəndə sağalır; yəni ağıl irrasional aləmdən cana mərmitək axan impulsları rasional düşüncənin işığına tutanda onu zərərsizləşdirir. Nevroz özü də tarazlığı pozulmuş, mənəvi dayağı uçmuş təbiətin fəsadı, ehtiras, aqressiya seli, ildırım yükü daşıyan vahiməli qara buluddur; nevroz - qaranlıq dünyanın "müjdəsi", qara qarğanın tutduğu şeytan payı, iblisin oynatdığı quyruqlu vəhşi meymun, buynuzlu tələk cindir. Dərin bioloji sükunətə dalmaqla, fəal zehni zəhmətə qatlaşmaqla müdrik insan hər növ meymunu, cini, dondan-dona girən İblisin özünü belə gözüyumulu ifşa eləyib qapısından qova bilər. Bu, Daodan, Buddadan, stoiklərdən bəri hər cür əsketizmin gəldiyi ən böyük həqiqətdir. Hər halda mənim "Morq küçəsində qətl" hekayəsindən ən çox tamsındığım həqiqət budur.

***

"Qızıl böcək" (1843) novellasını da fəlsəfi məzmunlu detektiv-macəra ədəbiyyatının qaranquşlarından saymaq olar. Burada söhbət basdırıldığı yer bir perqament üzərindəki işarələrlə şifrələnmiş xəzinənin tapılmasından gedir. Əhvalat Cənubi Karolinada baş verir, hekayə yenə də anonim təhkiyəçinin dilindən danışılır. Əsərin qəhrəmanı qədim aristokrat nəslinin nümayəndəsi Vilyam Leqrandır. Bu adam dalbadal uğursuzluğa düçar olandan sonra Yeni Orleandan qaçıb bir nökəri, bir də itiylə Atlantik sahilinə yaxın qumsal adada məskunlaşır. Nağılçı da onunla burada tanış olub dostlaşır.

Bir gün Leqran çöldən qızıl böcək tapır. Böcəyi yaxınlıqda gözünə dəyən kağıza bükub komasına aparır. Evdə məlum olur ki, onun kağız sandığı dəri perqament imiş. İstinin təsiriylə perqamentin üstündə gücla sezilən kəllə şəkli, başqa işarələr peyda olur. Leqran həmin işarələri xoş əlamət kimi qəbul eləyib onların sirrini çözməyə girişir. Nökəri də, dostu da onun havalandığını sanıb Leqranla ehtiyatlı davranmağa başlayırlar. Dostlar bir müddət görüşmürlər, aradan xeyli keçmiş Leqran məktub göndərib dostunu təcili evinə çağırır. Məktubdakı sayıqlama, sərsəmləmə əlamətləri təhkiyəçini onun yanına tələsdirir, adam özünü elə həmin gün Leqrana yetirir. Ancaq o, qarşısında dəli olmuş xəyalpərəst yerinə xəzinə sorağına çıxmış macəraçı, ölü dili kəşf eləmiş ixtiraçı görür. Dostunu səbirsizliklə gözləyən Leqran üçlükdə materikdəki dağ kəndinə yollanmağı təklif eləyir.

Bir neçə saatdan sonra onlar Leqranın axtardığı ağacı tapırlar. O, nökəri ağaca çıxarır, nökər ağasının təlimatına uyğun şəkildə ipin ucuna bağlanmış qızıl böcəyi ağacın gövdəsindən yana ayrılan yoğun budaqlardan birinə bərkidilmiş kəllənin sol gözündən keçirir. Böcəyin dəydiyi yeri qazmağa başlayırlar. Burada bir zaman dəniz quldurlarının basdırdığı böyük xəzinə yatır, pula çevirəndə bu xəzinənin o dövr üçün çox böyük məbləğ olan milyon yarım dollar dəyəri var. Sonda Leqran dostuna xəzinənin yerini göstərən şifrələri necə çözdüyünü izah eləyir.

Dəniz quldurlarının işarələrini oxuyan Leqran kimi biz də müəllifin bu əsərlə iki yüz ilin o başından oxucuya göndərdiyi mesajları çözməyə çalışaq. Qızıl böcək, əlbəttə, saf zəkanın, deduksiya dalğalarını, intuisiya kodlarını düzgün oxuyan qatqısız intellektin, qızıl beyinin rəmzidir. Xəzinə torpağın altındadır, dəniz quldurları onu kimlərisə çapıb talamaq, neçə-neçə ailəni ruzisiz, başsız qoymaq hesabına "qazanıb" bura gömüblər. Sağlam zəkanın yox, vəhşi instinktlərin diktəsiylə davranan piratlar da vəhşi təbiətin bir parçasıdır.

Təbiət, torpaq ana olsa da, tufanlar, qasırğalar, zəlzələlər törədən dəli, sərsəm davranışları, partlayıb səddini aşan "nevrozları", bidəva xəstəlikləri, ölümcül virusları var. Təbiət, torpaq özlüyündə müqəddəs deyil, təbiət - xammal, torpaq olsa-olsa materialdır. Təbiət də, torpaq da yalnız insan ruhunun, insan zəkasının müdaxiləsiylə müqəddəslik qazanır, dəyərə-qiymətə minir, xəzinəyə çevrilir. Nə qədər ki quldurların basdırdığı xəzinə kəşf olunmamışdı, onun heç bir dəyəri, əhəmiyyəti də yoxuydu. Dağların bətnində milyon illər boyu mürgüyə dalmış qızıl, gümüş, mis yataqları yalnız insan əliylə saflığa çıxandan sonra xəzinəyə çevrilib dəyər qazandı, zəkanın əməli sayəsində bəşəriyyətin işinə yaramağa başladı. Bu novellanın da bizə verdiyi mesaj budur ki, yer üzünə əliyalın atılmış insan qismətini taleyinin, qədərinin əlindən qoparmaqla, təbiətə qalib gəlməklə xoşbəxtlik, rahatlıq tapır. Təbiəti yenməksə yalnız mənəvi başlanğıcdan güc alan intellektin, qızıl başın qüdrəti sayəsində baş tuta bilər.

***

"Malström burulğanı" (1841) hekayəsinin qəhrəmanı Norveç sahilləri boyu ova çıxdığı yetmiş tonluq balıqçı gəmisində qardaşlarıyla birgə nəhəng su quyusuna düşür: "Bu fırtınanı təsvir eləməyə çalışmaq ağılsızlıq olardı. Ən yaşlı Norveç dənizçiləri də belə bir şeyi yuxularında görməyiblər. Biz yelkənləri yığmağa atıldıq, ancaq küləyin elə ilk güclü həmləsiylə dor ağacının baltayla kəsilibmiş kimi qopub dənizə düşməsi bir oldu. Gözümüzü açmağa imkan tapmamış dor ağacı təhlükəsizlik naminə özünü kəndirlə ona bağlamış kiçik qardaşımı da çəkib özüylə apardı... Gəmimiz sel ağzına düşmüş qu tükünə bənzəyirdi. Onun göyərtəsi hamar idi, burun hissəsində kiçik bir lük vardı, dənizə çıxanda həmişə lükün ağzını bağlayırdıq. Belə eləməsəydik, şübhəsiz, indi dənizin dibində olardıq, çünki bəzən gəmi tamam suya dalırdı. Belə hallarda mən nəfəs almamağa çalışır, var gücümlə dor ağacının ətəyindəki rım-boltdan yapışıb qalırdım. Taqətdən düşəndə isə dizlərim üstə qalxıb başımı sudan çıxarırdım..."

Müəllif dəhşətli qasırğanı, gəminin sürətlə burulğana yaxınlaşmasını, sonra da okeanda əmələ gəlmiş nəhəng ölüm quyusuna düşməsini kinematoqrafik dəqiqliklə elə yerli-yataqlı təsvir eləyir ki, amansız təbiətin dağıdıcı, öldürücü gücü bu təsvirləri oxuyan kəsdə vahimə yaradır. Bir dalğalıq canı olan xırdaca insan belə bir gücün qarşısına nəylə çıxa bilər? Onun artıq müşahidəçi olmağa belə taqəti, vaxtı qalmayıb: "Biz burulğanı dumanlı görürdük, çünki gəmi çox sürətlə gedirdi. Adama elə gəlirdi gəmi suya dalmadan sabun qabarcığına bənzər köpüklərin üstüylə sürüşür. Gəmimizin sağ böyrü burulğana, sol böyrüsə indicə tərk elədiyimiz okeana baxırdı. Okean bizi üfüqdən ayıran nəhəng divara bənzəyirdi. Qəribədir ki, uçurumun kənarında olduğumuz vaxt mən əvvəlkindən xeyli sakit idim. Bütün ümidimi itirdiyimdən bayaqdan bəri məni sıxan qorxu hissi də yoxa çıxmışdı. Görünür, ümidsizlik mənə güc verirmiş".

davamı növbəti sayımızda



*F.Uğurlu*

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**




# Güclü Azərbaycanın təməlində dayanan ideya!

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Azərbaycançılıq ideyasının təbliği” istiqaməti üzrə hazırlanmışdır**



Müasir dünyanın mürəkkəb geosiyasi proseslərlə, informasiya müharibələri ilə, milli kimliklərin müxtəlif təsirlər altında sınağa çəkildiyi dövrdə hər bir dövlətin gələcəyini müəyyən edən mühüm amillərdən biri cəmiyyəti vahid məqsəd ətrafında birləşdirən ideologiyanın mövcudluğu hesab edilir. Azərbaycan üçün bu missiyanı uğurla yerinə yetirən əsas ideya məhz azərbaycançılıqdır. Çünki bu anlayış təkcə müəyyən siyasi baxışlar toplusu deyil, əsrlər boyu formalaşmış milli-mənəvi dəyərlərin, dövlətçilik ənənələrinin, Vətən sevgisinin, milli kimliyin, ana dilinə, tarixə, mədəni irsə və milli birlik ruhuna bağlılığın bütöv fəlsəfəsini özündə ehtiva edən mənəvi dayaqlar sistemidir.

Azərbaycançılıq ideyası müxtəlif etnik, dini və mədəni mənsubiyyətə malik insanların vahid Azərbaycan dövləti ətrafında birləşməsini, ölkənin milli maraqlarını hər şeydən üstün tutmasını, dövlət müstəqilliyinin qorunmasını, milli həmrəyliyin möhkəmləndirilməsini və gələcək nəsillərdə vətənpərvərlik hissinin gücləndirilməsini qarşıya məqsəd qoyur. Ona görə də bu ideya cəmiyyətin bütün təbəqələrini əhatə edən ümummilli dəyər kimi qəbul edilir və ölkənin ictimai-siyasi həyatında xüsusi əhəmiyyət daşıyır.

Azərbaycançılığın əsas mahiyyəti insanları yalnız eyni coğrafiyada yaşadıqları üçün deyil, ortaq tarixə, ortaq taleyə, ortaq məsuliyyətə və ortaq gələcək arzularına sahib olduqları üçün bir araya gətirməkdən ibarətdir. Dövlətin gücü təkcə iqtisadi göstəricilər və ya hərbi potensialla ölçülmür, eyni zamanda vətəndaşların öz dövlətinə olan inamı, milli həmrəyliyi, birliyi və ümumi məqsədlər naminə həmrəy davranış nümayiş etdirmək bacarığı ilə müəyyən olunur.

Tarixin müxtəlif mərhələlərində Azərbaycan xalqı saysız-hesabsız sınaqlardan keçsə də, milli kimliyini, dilini, adət-ənənələrini və mədəni irsini qoruyub saxlaya bilib. Bu mənəvi irs sonrakı dövrlərdə azərbaycançılıq ideyasının möhkəm təməllər üzərində formalaşmasına şərait yaradıb. Bu gün həmin dəyərlər ölkənin inkişaf strategiyasında, dövlətçilik düşüncəsində və milli birlik siyasətində mühüm yer tutur.

Azərbaycançılığın təbliği ilk növbədə ailədən başlayır. Uşağın Vətənə, bayrağa, ana dilinə, milli musiqiyə, ədəbiyyata, tarixə və xalqın qəhrəmanlıq salnaməsinə sevgisi məhz ailədə formalaşır. Daha sonra məktəb, ali təhsil müəssisələri, elm və mədəniyyət ocaqları, media qurumları, ictimai təşkilatlar və bütövlükdə cəmiyyət bu dəyərlərin gələcək nəsillərə ötürülməsində mühüm rol oynayır, nəticədə milli mənsubiyyət hissi daha da möhkəmlənir və vətəndaş məsuliyyəti güclənir.

Müasir informasiya texnologiyalarının sürətlə inkişaf etdiyi, sosial şəbəkələrin ictimai rəyə ciddi təsir göstərdiyi bir dövrdə azərbaycançılıq ideyasının təbliği daha böyük aktuallıq qazanır. Gənclərin milli-mənəvi dəyərlərə bağlı ruhda yetişdirilməsi, onların tarixini dərindən bilməsi, milli qəhrəmanları tanıması, Azərbaycan dilinə hörmətlə yanaşması və dövlətçilik ənənələrinə sadiq qalması yalnız sağlam ideoloji mühit formalaşdığı zaman mümkün olur.

Bu gün Azərbaycanın əldə etdiyi siyasi sabitlik, iqtisadi inkişaf, beynəlxalq nüfuzunun artması, mədəniyyətinin dünya miqyasında tanıdılması və milli maraqlarının ardıcıl şəkildə müdafiə olunması azərbaycançılıq ideyasının praktik əhəmiyyətini daha aydın nümayiş etdirir. Belə ki, milli birlik möhkəm olduqda dövlət qarşısında duran strateji məqsədlərə çatmaq daha asan olur, cəmiyyət daxili həmrəylik güclənir və ölkənin gələcək inkişafı üçün etibarlı zəmin yaranır.

Azərbaycançılıq yalnız ölkə daxilində yaşayan vətəndaşları deyil, dünyanın müxtəlif guşələrində yaşayan milyonlarla soydaşımızı da vahid mənəvi bağlarla birləşdirən ideyadır. Xaricdə yaşayan azərbaycanlıların milli kimliklərini qoruması, ana dilini yaşatması, Azərbaycan həqiqətlərini beynəlxalq ictimaiyyətə çatdırması və doğma Vətənlə əlaqələrini möhkəmləndirməsi ümummilli həmrəyliyin mühüm göstəricilərindən biri hesab olunur.

Bu gün azərbaycançılıq ideyasının təbliği sadəcə bir ideoloji çağırış deyil, milli təhlükəsizliyin, dövlətçilik ənənələrinin qorunmasının, cəmiyyətin mənəvi bütövlüyünün təmin edilməsinin və gələcək nəsillərə güclü, müasir, eyni zamanda öz milli köklərinə bağlı Azərbaycanın miras qoyulmasının mühüm şərti kimi qiymətləndirilir. Çünki xalqın gücü onun birlik ruhunda, dövlətin gücü isə həmin birliyi yaşadan və daim inkişaf etdirən ümummilli ideyalara sədaqətində öz əksini tapır.

*Yeganə BAYRAMOVA*



## Güləş üzrə dünya çempionatının loqosu təsdiqlənib

Bakıda keçiriləcək güləş üzrə U17 dünya çempionatının rəsmi loqosu təsdiqlənib. Güləş Federasiyasından bildirilib ki, loqo yarışın idman ruhunu, beynəlxalq xarakterini və Azərbaycanın zəngin mədəni irsini özündə birləşdirən vizual konsepsiya əsasında hazırlanıb. Loqonun mərkəzində yerləşən stilizə olunmuş iki güləşçi fiquru mübarizəni, rəqabəti və idmanın universal dilini ifadə edir. Dinamik kompozisiya güləşin əsas fəlsəfəsini - güc, əzm və ədalətli mübarizə prinsiplərini əks etdirir. Loqoda üstünlük təşkil edən göy rəng Dünya Güləş Birliyinin (UWW) korporativ vizual üslubunun əsas elementlərindən biridir. UWW mundiallarda brendinqində göy və ağ rəng palitrasından geniş istifadə edir ki, bu da yarışın vizual kimliyini vurğulayır.

Loqonun xarici halqasında istifadə olunan ornamentlər Qarabağ xalçaçılıq ənənələrindən ilhamlanaraq hazırlanıb. Milli naxışlar Azərbaycanın zəngin mədəni irsini, Qarabağın qədim xalçaçılıq məktəbini və milli sənətin dünya idman səhnəsində tanıdılmasını simvolizə edir. Bununla yanaşı, loqo vasitəsilə beynəlxalq idman tədbirinin Azərbaycanın milli-mədəni dəyərləri ilə vəhdəti nümayiş etdirilir.Cari ilin ilk güləş mundialında müxtəlif ölkələrdən yüzlərlə perspektivli yeniyetmə idmançı mübarizə aparacaq. Xatırladaq ki, U-17 dünya çempionatı iyulun 27-dən avqustun 2-dək Milli Gimnastika Arenasında keçiriləcək.

UWW
WRESTLING
U17 WORLD CHAMPIONSHIPS
BAKU'26

## Xorvatiya millisinə yeni baş məşqçi təyin edilib

Futbol üzrə Xorvatiya millisinin yeni baş məşqçisi açıqlanıb. Xorvatiya Futbol İttifaqının rəsmi saytına istinadən xəbər verir ki, bu posta



Slaven Biliç təyin olunub. 57 yaşlı mütəxəssis Zlatko Daliçi əvəzləyib. Biliç 2006-2012-ci illərdə də yığmaya rəhbərlik edib. Xatırladaq ki, Xorvatiya millisi dünya çempionatının 1/16 final mərhələsində Portuqaliyaya 1:2 hesabı ilə məğlub olaraq mübarizəni dayandırıb.

## “Kəpəz”dən yeni transfer



“Kəpəz” yay fasiləsində ilk transferini reallaşdırıb. Apasport.az xəbər verir ki, Gəncə təmsilçisi keçmiş qapıçısı Rojerio Santosu heyətinə qatıb. Portuqaliyalı qolkiperlə 1 illik müqavilə imzalanıb. Qeyd edək ki, 27 yaşlı Santos “sarı-göylər”in heyətində 2024-2025-ci illər mövsümündə çıxış edib.

## Yusif İmanov “İmişli”də




“İmişli” “Kəpəz”dən ayrılan qapıçı Yusif İmanovu transfer edib. Bu barədə bölgə təmsilçisi məlumat yayıb. 23 yaşlı qolkiperlə “2+1” illik müqavilə imzalanıb. Xatırladaq ki, Yusif İmanov “Sabah” və Kosovonun “Mališeva” komandasında da çıxış edib.

## Mingəçevirdə “Kürü keçək?!” yarışı təşkil olunacaq




Avqustun 8-də Gənclər və İdman Nazirliyi, Azərbaycan Üzgüçülük Federasiyası və Bakı Şəhər Halqası Əməliyyat Şirkətinin birgə təşkilatçılığı ilə açıq suda ənənəvi kütləvi üzmə yarışı keçiriləcək. Nazirlikdən verilən məlumata görə, yarış Mingəçevir şəhərində, Kür çayının iki sahili arasında baş tutacaq. Sayca 5-ci dəfə təşkil ediləcək yarışda ölkənin bütün şəhər və rayonlarından üzmə bacarığına malik 12 yaşdan yuxarı şəxslər iştirak edə bilərlər. “Kürü keçək?! 5” adlı yarış 12-17, 18-23, 24-35, 36-55, 56-70 və 70+ yaş kateqoriyaları üzrə keçiriləcək.

## Sommer Belçikada

Yann Sommer karyerasını Belçikada davam etdirəcək. 37 yaşlı qolkiper azad agent kimi “Brügge” ilə müqavilə imzalayıb. Belçika klubunun yaydığı məlumata əsasən, təcrübəli qapıçı ilə 2029-cu ilin yayına qədər nəzərdə tutulan sözləşmə bağlanıb. Sommer son üç mövsümü İtaliyanın “İnter” klubunda




keçirib. O, daha əvvəl İsveçrədə “Bazel”, Almaniyada isə Münhenqladbax “Borussiya”sı və “Bavariya”nın formasını geyinib. Karyerası ərzində dörd dəfə İsveçrə, iki dəfə İtaliya və bir dəfə Almaniya çempionu olan qapıçı İsveçrə millisində 94 oyun keçirib. O, 2024-cü ilin yayında yığmadakı çıxışını başa vurub.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4472**
**Sifariş: 907**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova